

# LUKAŞENKO FÜZULİ VƏ ŞUŞADA

Belarus Prezidentinin Azərbaycana dövlət səfəri bir çox məqamlar baxımından mühüm əhəmiyyətə malikdir.

Füzuliyə səfəri çərçivəsində Aleksandr Lukaşenkonu Prezident İlham Əliyev qarşılayıb. "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Samir Rzayev Belarus Prezidentinə Füzuli, Zəngilan və Laçın Beynəlxalq Hava limanları barədə məlumat verib.

Prezident İlham Əliyev və Aleksandr Lukaşenko Füzulidən sonra Şuşaya səfər ediblər. Şuşada Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvanın, Bülbülün və Üzeyir Hacıbəylinin işğal dövründə ermənilər tərəfindən güllləbaran edilmiş heykəllərinə baxıblar.

SƏHİFƏ 2-də




## KREDİTLƏR VƏTƏNDAŞDAN BİZNESƏ KEÇİR

Bir neçə aydır ölkədə problemli kreditlərin həcmində azalma müşahidə edilir. Ekspertlər bildirirlər ki, hazırda problemli kredit portfelinin əsas hissəsini istehlak yox, biznes kreditləri təşkil edir.

SƏHİFƏ 7-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

18 MAY ŞƏNBƏ 2024 № 18 (4169) Qiyməti - 40 qəpik www.kaspi.az






## SƏMƏRƏLİ VƏ KONSTRUKTİV ƏMƏKDAŞLIQ NÜMUNƏSİ

Azərbaycan-Çin münasibətləri qarşılıqlı anlaşma prinsipinə əsaslanır. Ölkələr bir-birilərinə dost simalarını təqdim edərək qarşılıqlı dəstək mexanizmlərini yeni nizama uyğun şəkildə formatlayırlar.

SƏHİFƏ 4-də



## BİR GÜNDƏ YAŞANAN İKİ MÜHÜM TARİXİ HADİSƏ

# AZƏRBAYCAN BUNU DA BACARDI

Rəsmi Bakı ərazisindəki Rusiya sülhməramlılarının qarşılıqlı əməkdaşlıq çərçivəsində çıxarılmasına nail oldu. İkitərəfli danışıqlar çərçivəsində Ermənistanı da konstruktiv əməkdaşlıq müstəvisinə gətirə bildi.

### SÜLHMƏRAMLILARI YOLA SALDIQ

Azərbaycan və Ermənistan arasında sərhəd protokolunun imzalanması ilə eyni gündə Xocalıda rus sülhməramlılarının ölkəmizi tərk etməsi ilə bağlı tədbir təşkil olundu. Xatırladaq ki, sülhməramlıların gedişi ilə bağlı razılıq iki ölkənin liderləri arasında qəbul edilmiş birgə qərara əsaslanır.

### ƏMƏKDAŞLIĞIN GENİŞLƏNMƏSİ FONUNDA

Bu addım Rusiya-Azərbaycan münasibətlərinin pisləşməsi fonunda yox, əksinə, Moskva ilə Bakının əməkdaşlığının genişlənməsi fonunda yaşanır. Rus sərhədçiləri Ermənistan ərazisində də Azərbaycanla sərhəddəki bəzi bölgələrdən çıxır.

SƏHİFƏ 3-də



## SÜRƏTLİ BAHALAŞMA DÖVRÜ BİTDİ?

Son aylarda istər beynəlxalq qurumlar, istərsə də Mərkəzi Bank tərəfindən inflyasiya proqnozları azalan xətt üzrə yenilənib. Ekspertlər daxili bazarda bahalaşma tendensiyasının zəiflədiyi qənaətindədirlər.

SƏHİFƏ 10-da



## ERMƏNİ MÜXALİFƏTİ PARÇALANMAYA DOĞRU

Kilsə və Köçəryan dəstəsinin Tavuş aksiyası uğursuzluğa düçar olduqdan sonra tərəflər bu dəfə paytaxt İrəvanı hədəf seçiblər. Bu xaotik aksiyaların əsas məqsədinin kreslo davası olduğu üzə çıxıb.

SƏHİFƏ 5-də

"Uşaqlıqda planetimizi xilas etmək istəyirdim"

## SİYASƏTLƏ BAŞLAYIB, DATA ALİMİ OLDU



Bakalavr təhsilini ADA-da beynəlxalq münasibətlər ixtisası üzrə alıb, qırmızı diplomla bitirib. Hazırda ABŞ-nin Sent-Luis Universitetində metan qazının aşkarlanması üzrə tədqiqat köməkçisidir. Müsahibimiz Azərbaycanda yaradılan "İstiqbal-1" dron layihəsinin həmmüəllifi, innovasiya və sahibkarlıq sahəsi üzrə Gənclər üçün Prezident mükafatçısı, gənc Avropa səfiri Suat Muradovdur.

SƏHİFƏ 8-9-da



## "ZAMANI DÜZGÜN QİYMƏTLƏNDİRMƏK LAZIMDIR"

"Məktəbdə" layihəsinin qonağı olan Əməkdar elm xadimi Şahlar Əsgərov: "Təhsil kollegial idarə olunmalıdır. Əgər bir firmanı tək əllə idarə edirsənsə, təhsillə mədəniyyətdə bu keçmir".

SƏHİFƏ 13-də



## ÖLÜMÜ İLƏ HAMINI YANDIRAN AKTRİSA

Vəfa Fətullayevanın ailə həyatı uğursuz alınır. 42 yaşında sevdiyi səhnə ilə də, həyatla da vidalaşır. Ölümündən bir neçə ay sonra atası da, anası da dünyasını dəyişir. Onlar Vəfanın ölümünə dözə bilmirlər.

SƏHİFƏ 15-də



İtirən Avropa İttifaqı olacaq SƏHİFƏ 6-da



Elektron ticarəti populyarlaşdıran səbəblər SƏHİFƏ 11-də



293 erkən evliliyin qarşısı alınıb SƏHİFƏ 14-də



Kasıbın maşını olmayacaq? SƏHİFƏ 12-də



Mövsümün qəhrəmanlarına çevrilənlər SƏHİFƏ 16-da



# LUKAŞENKO FÜZULİ VƏ ŞUŞADA

**Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana dövlət səfəri bir çox məqamlar baxımından mühüm əhəmiyyətə malikdir. Onun işğaldan azad edilmiş Füzuliyə və Şuşaya səfəri xüsusi vurğulanmalıdır.**

Azərbaycana dövlət səfəri çərçivəsində Belarus Prezidenti Aleksandr Lukaşenko mayın 17-də Füzuli və Şuşa şəhərlərinə baş çəkib. Burada aparılan yenidənqurma və bərpa işlərinin gedişi ilə tanış olub.

### HAVA LİMANLARI İLƏ TANIŞLIQ

Füzuliyə səfəri çərçivəsində Aleksandr Lukaşenkonu Prezident İlham Əliyev qarşılayıb. "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Samir Rzayev Belarus Prezidentinə Füzuli, Zəngilan və Laçın Beynəlxalq Hava limanları barədə məlumat verib.

Bildirilib ki, "Qarabağın hava qapısı" adlandırılan Füzuli Beynəlxalq Hava Limanı 2021-ci il oktyabrın 26-da istifadəyə verilib. Ən müasir səviyyədə inşa olunan bu aeroport istənilən tip hava gəmisini qəbul etmək imkanına malikdir. Uçuş-enmə zolağının uzunluğu 3000, eni isə 60 metrdir. Hava limanının müasir infrastrukturla təchiz olunan terminalı saatda ən azı 200 sərnişinə xidmət etməyə imkan verir. Zəngilan Beynəlxalq Hava Limanının açılışı 2022-ci il oktyabrın 20-də olub. Bu hava limanı bütün növ təyyarələri, o cümlədən genişgövdəli ağır yük təyyarələrini qəbul edir. Təməli 2021-ci ildə qoyulan Laçın Beynəlxalq Hava Limanının inşasının bu il tamamlanması planlaşdırılır. Hava limanının uçuş-enmə zolağının uzunluğu 3000 metr, eni isə 60 metr olacaq. Bu hava limanları bölgəyə səfərə gələnlərin rahatlığını təmin edəcək, işğaldan azad olunmuş ərazilərimizdə aparılan quruculuq işlərinin daha da sürətlənməsinə töhfə verməklə, ümumilikdə Qarabağın və Şərqi Zəngəzurun sosial-iqtisadi inkişafında müstəsna rol oynayacaq.

### FÜZULİDƏ MƏRKƏZİ PARK YARADILACAQ

Daha sonra dövlət başçıları Füzuli şəhərinin dağıdılmış yerlərinə baxıb və şəhərin Baş planı ilə tanış olublar. Qeyd edilib ki, tikiləcək Füzuli Memorial Kompleksində dağıdılmış binaların xarabalıqları olduğu kimi qorunub saxlanılacaq. Kompleksdə İşğal və Zəfər muzeyləri yaradılacaq.

Sonra dövlət başçılarına Füzulinin Baş planına uyğun olaraq həyata keçirilən və görüləcək işlər barədə məlumat verilib.

Bildirilib ki, Baş planda 2040-cı ilədək Füzuli şəhərinin inzibati ərazisinin 1943 hektara, əhalisinin 50 min nəfərə çatdırılması nəzərdə tutulur. Müasir standartlara və memarlıq xüsusiyyətlərinə uyğun inşa ediləcək Füzuli işğaldan azad edilmiş ərazilərdə ən böyük şəhərlərdən biri olacaq. Şəhərdə rahat və müasir həyat şəraitinin təmin edilməsi üçün orta və azmərtəbəli yaşayış binaları, həyətyanı torpaq sahələri olan fərdi evlər inşa ediləcək, təhsil, səhiyyə, mədəniyyət, istehsalat müəssisələri, rekreasiya və digər təyinatlı zonalar yaradılacaq. Burada şəhərsalmanın bütün müasir tələblərinə cavab verəcək üç yaşayış kompleksi inşa olunur. Komplekslərdə ümumilikdə 2462 mənzil olacaq. Baş plana əsasən, təxminən 22,5 hektar ərazidə Mərkəzi park yaradılacaq. Parkda istirahət zonaları, botanika bağı, sıx meşə zonası, piknik və idman meydançaları, "Poeziya" meydanı, amfiteatr, kafe-restoranlar və s. fəaliyyət göstərəcək. Burada müayinə və müalicənin yüksək səviyyədə aparılması üçün ən müasir tibbi avadanlıqla təchiz ediləcək 180 çarpayılıq Füzuli Rayon Mərkəzi Xəstəxanası inşa olunacaq.













## ŞUŞA İLƏ TANIŞLIQ

Prezident İlham Əliyev və belaruslu həmkarı Aleksandr Lukaşenko Füzulidən sonra Şuşaya səfər ediblər. Şuşada Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvanın, Bülbülün və Üzeyir Hacıbəylinin işğal dövründə ermənilər tərəfindən güllələnmiş edilmiş heykəllərinə baxıblar. Dövlət başçılarına Şuşanın Baş planı barədə məlumat verilib.

Daha sonra prezidentlər Şuşada Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Yaradıcılıq Mərkəzində "Heydər Əliyev və Qarabağ" sərgisinə baxıblar, Bülbülün ev-muzeyində, Cıdır düzündə olublar.



## İKİ ÖLKƏ ARASINDA ƏSL DOSTLUĞUN NÜMUNƏSİ

Qeyd edək ki, Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana dövlət səfəri bir çox məqamlar baxımından mühüm əhəmiyyətə malikdir.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva AZƏRTAC-a açıqlamasında bildirib ki, Belarus Prezidenti Aleksandr Lukaşenkonun ölkəmizə dövlət səfəri iki ölkə arasında müxtəlif sahələri əhatə edən münasibətlərin inkişafı baxımından mühüm əhəmiyyətə malikdir. Səfər çərçivəsində keçirilən görüşlər zamanı səsləndirilən fikirlər, aparılan müzakirələr tərəflər arasında strateji tərəfdaşlığa və qarşılıqlı etimada əsaslanan münasibətlərin uğurla inkişaf etdiyini təsdiqləyir.

O bildirib ki, Belarus Prezidentinin dövlət səfəri əlaqələrimizin inkişafına böyük təkan verəcək. Azərbaycan ilə Belarusun strateji tərəfdaş və dost ölkələr olduğunu vurğulayan S.Fətəliyeva ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın böyük potensialı olduğunu qeyd edib.

Deputatın sözlərinə görə, Azərbaycan-Belarus əlaqələrinin dinamikasına nəzər saldıqda aydın olur ki, müxtəlif sahələri əhatə edən bu münasibətlər qarşılıqlı faydalı əməkdaşlığa əsaslanır, uğurla inkişaf edir.

Belarusun Azərbaycanın ərazi bütövlüyünü hər zaman dəstəklədiyini vurğulayan S.Fətəliyeva deyib: "Prezidentlərin görüşündə postmünaqişə dövründə Cənubi Qafqaz regionunda vəziyyət də müzakirə olundu. Dövlətimizin başçısı Belarus şirkətlərini Qarabağ və Şərqi Zəngəzur bölgələrinin bərpasında fəal iştiraka dəvət etdi. Çünki Prezident İlham Əliyevin də vurğuladığı kimi, Belarusun çox yaxşı şəhərsalma təcrübəsi, müasir texnologiyaları, aqroşəhərciklərin tikintisi təcrübəsi vardır. A.Lukaşenko da öz növbəsində Belarus şirkətlərinin işğaldan azad edilmiş ərazilərin bərpasında yaxından iştirak etməyə hazır olduğunu bildirib".

Sevinc Fətəliyeva qeyd edib ki, Belarus Prezidentinin işğaldan azad edilmiş Füzuliyə və Şuşaya səfəri xüsusi vurğulanmalıdır: "Aleksandr Lukaşenkonun Füzuli və Şuşa şəhərlərinə səfəri iki ölkə arasında əsl dostluğun nümunəsidir. Azad olunmuş ərazilərin bərpasında Belarusun da iştirak etmək istəyi məmnunluq doğurur".

# Azərbaycan bunu da BACARDI




## Rəsmi Bakı ərazisindəki Rusiya sülhməramlılarının qarşılıqlı əməkdaşlıq çərçivəsində çıxarılmasına nail oldu. Azərbaycan ikitərəfli danışıqlar çərçivəsində Ermənistanı da konstruktiv əməkdaşlıq müstəvisinə gətirə bildi.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Azərbaycan və Ermənistan arasında sərhədlərin müəyyənləşdirilməsi ilə bağlı mühüm proseslər yaşanmaqdadır. Artıq işğaldan azad edilən dörd kəndin geri qaytarılması və bu istiqamətdə delimitasiya proseslərinin yekunlaşdığını söyləyə bilərik. Belə ki, bu həftə iki ölkənin müvafiq komissiyaları arasında sərhəd xəttinin koordinatları ilə bağlı protokol imzalanıb. Bu məsələdə SSRİ Silahlı Qüvvələrinin Baş Qərargahının 1979-cu ildə növbətçilik prosedurunu keçmiş 1976-cı il tarixli topoqrafik xəritəsi əsas götürülüb. Əldə edilmiş razılaşmalara əsasən, yaxın günlərdə Azərbaycan və Ermənistan sərhədçiləri sərhədin razılaşdırılmış hissəsində yerləşdiriləcəklər.

### YENİ REALLIQLAR QƏBUL EDİLİR

Xüsusi qeyd edilməlidir ki, bir müddət əvvəl başlayan məlum proses məhz ikitərəfli danışıqlar formatında aparılan müzakirələrin nəticəsidir. Son bir neçə ildə sərhədlərin müəyyənləşdirilməsini ləngidən, bölgədəki gərginliyi saxlamağa hesablanan planlar artıq işləmir. Səbəb isə məlumdur. Azərbaycanın 44 günlük müharibə və antiterror əməliyyatlarından sonra yaratdığı reallıqlar artıq qəbul edilir. Ən başlıcası isə - Ermənistan tərəfindən.

### REVANŞİSTLƏRİN POZULAN OYUNU

Ermənistanda revanşist qüvvələr Bakı ilə İrəvan arasındakı hər anlaşmanı fürsətə çevirərək siyasi gərginlik yaratmaq, prosesi pozmaq və hərbi əməliyyatların yenidən başlamasına rəvac verməyə çalışırlar. Lakin Ermənistan əhalisinin 44 günün yaratdığı reallıqları dərk etməyə başlaması bu təxribatları nəticəsiz qoyur. Baş nazir Nikol Paşinyan hər fürsətdə Bakı ilə delimitasiya məsələsində başlanğıc rolunu oynaya biləcək bu anlaşmaya qol qoyulmayacağı təqdirdə yeni müharibə ehtimalını açıq şəkildə bəyan edirdi. Görünən odur ki, rəsmi İrəvan sülhə gedən yolda maneələri aradan qaldırmaq əvəzinə, onları daha da çətinləşdirmək siyasətinin sonunun uçurum olduğunu görməkdədir.

Sirr deyil ki, Nikol Paşinyanın indi sərgilədiyi mövqe onu hakimiyyətə gətirənlərlə razılaşdırılmadan ortaya qoyula bilməz. Maraqlı məqam odur ki, bir müddət əvvələ qədər Cənubi Qafqazda vəziyyəti gərginləşdirmək istəyən Fransa, ABŞ və onların planlarına xidmət edən bir sıra beynəlxalq təşkilatlar artıq dörd kəndin geri qaytarılması və sərhədlərin müəyyənləşdirilməsi reallığı ilə barışıblar.

### BİR GÜNDƏ İKİ TARİXİ HADİSƏ

Proseslərin axarına və qəbul edilən qərarların ardıcıllığına nəzər salsaq, əslində burada təəccüblü görünə biləcək məqamların olmadığı qənaətinə gəlmək mümkündür. Bakının bölgədə əsas söz sahibi olması və özünün yaratdığı reallıqlarla yanaşı, tarixi gerçəklikləri də gözardı etməməsi, siyasətini praqmatizmə əsaslanan bərabərhüquqluluq, uzlaşma və qarşılıqlı hörmətə əsaslanaraq qurması bütün daşların öz yerinə oturmasına təkan verir. Söhbət rus sülhməramlılarının artıq Azərbaycanın suveren ərazilərini birdəfəlik və qarşılıqlı anlaşma şəraitində tərk etməsindən gedir.

Qeyd edək ki, Azərbaycan və Ermənistan arasında sərhəd protokolunun imzalanması ilə eyni gündə Xocalıda rus sülhməramlılarının ölkəmizi tərk etməsi ilə bağlı tədbir təşkil olundu. Xatırladaq ki, sülhməramlıların gedişi ilə bağlı razılıq iki ölkənin liderləri arasında qəbul edilmiş birgə qərara əsaslanır. Bu addım Rusiya-Azərbaycan münasibətlərinin pisləşməsi fonunda yox, əksinə, Moskva ilə Bakının əməkdaşlığının genişlənməsi fonunda yaşanır.

## QƏRBDƏKİLƏRİN DƏYİŞƏN PLANLARI

Rus sərhədçiləri Ermənistan ərazisində də Azərbaycanla sərhəddəki bəzi bölgələrdən çıxır. Bu qərar da iki dövlətin rəhbərliyinin ortaq mövqeyi ilə əsaslandırılır. Lakin hər iki hal müqayisə edildikdə vəziyyətin tamamilə fərqli olduğunu görürük. Ermənistan rəsmən Rusiyanın hərbi müttəfiqi olsa da, indi aparılan siyasət Moskvadan uzaqlaşma və onun maraqlarına zərbə vurmaq məqsədinə hesablanıb. İrəvanın Kremllə əlaqələrinin gündən-günə pisləşməsi heç kimə sirr deyil.

Sülhməramlıların gedişinə dair Moskvanın mövqeyi Qərbdəki bəzi dairələrin də Cənubi Qafqazla bağlı planlarında korrektələrə rəvac verib. Vaxtilə Moskva-Bakı münasibətlərində əngəl kimi görünən sülhməramlı faktoru ortadan qalxdığı üçün Cənubi Qafqazda təxribatçı planları pozulanlar bir həqiqəti gördülər. Dünyanın az qala yarısı ilə düşmən olan Rusiya Azərbaycan dövlətinin milli maraqlarını nəzərə alır, onun suveren hüquqlarına hörmətlə yanaşır. Təbii ki, Kremlin beynəlxalq tərəzinin tərəflərini alt-üst edən davranışları fonunda Moskvanın belə bir mövqe sərgiləməsini şərtləndirən başlıca amil Azərbaycan dövlətinin, onun ali rəhbərliyinin yürütdüyü siyasət, Bakının artan beynəlxalq nüfuzudur.



## HƏR ŞEY RƏSMİ İRƏVANIN İRADƏSİNDƏN ASILIDIR

Bu, həm də o anlama gəlir ki, Azərbaycan Ermənistanla münasibətlərin normallaşdırılması prosesində öz maraqlarını təmin etməyə, həmçinin beynəlxalq hüquqa əsaslanan prinsiplər üzrə sülh sazişi imzalamağa, sərhədlərin demarkasiyasına hazırdır. Təbii ki, söhbət vasitəçisiz, kənar müdaxilə olmadan ikitərəfli danışıqlar formatından gedir. Əgər İrəvan dörd kəndlə bağlı sərgilədiyi mövqeyi sona qədər qoruyub saxlamağı bacararsa, sərhədlərin müəyyənləşdirilməsi ilə bağlı proses bir o qədər tez və problemsiz başa çatacaq. Yəni, hər şey İrəvanın təsir altına düşmədən üzərinə götürdüyü öhdəlikləri sona qədər yerinə yetirməsi iradəsindən asılıdır.

### BAKI İLƏ PEKİN MÜŞTƏRƏK VİZYONUNU ORTAYA QOYUR

# SƏMƏRƏLİ VƏ KONSTRUKTİV ƏMƏKDAŞLIQ NÜMUNƏSİ

**Azərbaycanla Çinin ikitərəfli münasibətləri qarşılıqlı anlaşma və dəstək prinsiplərinə söykənən ali səviyyəli bir mərama malikdir. İki ölkə bir-birilərinə dost simalarını təqdim edərək qarşılıqlı dəstək mexanizmlərini yeni nizama uyğun şəkildə formatlayırlar.**



AQŞİN KƏRİMOV

Mayın 14-də Çin Xalq Respublikasının Çin Xalq Siyasəti üzrə Məşvərət Şurasının Ümumçin Komitəsinin sədr müavini, Şanxay Əməkdaşlıq Təşkilatının Mehriban Qonşuluq, Dostluq və Əməkdaşlıq üzrə Çin Komitəsinin sədri Şen Yueyuenin başçılıq etdiyi nümayəndə heyəti Prezident İlham Əliyevin qəbulunda olub.

Müzakirələrin atmosferi Azərbaycanla Çin arasındakı münasibətlərin rəng və xarakterinin olduqca müsbət olduğunu və gələcəyə doğru birgə hədəflər kontekstini göstərir.

#### ƏLİYEVLƏ CİNPİNİN GÖRÜŞLƏRİ

Görüşdə Prezident İlham Əliyev Çin Sədri Si Cinpinlə görüşlərini məmnunluqla xatırladıb.

Elə bu məqamda Prezident İlham Əliyevin Çinə səfərləri, ikitərəfli formatda və digər tədbirlərdə Si Cinpinlə görüşlərini xatırlatmaq yerinə düşər.

İlham Əliyev Si Cinpinlə:

- 2014-cü ilin 20 mayında Çində Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Zirvə Toplantısı çərçivəsində görüşüb,
- 2015-ci ilin 10 dekabrında Pekində görüşü keçirilib,
- 2019-cu ilin 24 aprelində yenidən Pekində müzakirələr aparıb. Bundan iki gün sonra, 26 aprel tarixində İlham Əliyev "Bir kəmər, bir yol" Forumunda nitq söyləyib,
- 2022-ci ilin sentyabrın 15-də Səmərqənddə bir araya gələrək müzakirələr aparıb.

Bunlardan başqa, liderlərin telefon söhbətləri və məktublarla bir-birilərini təbrikləri olub. Eyni zamanda, keçən müddət ərzində Çindən olan müxtəlif səviyyəli nümayəndə heyətlərinin Azərbaycana səfərləri gerçəkləşib.



### PEKİNİN AZƏRBAYCANLA BAĞLI HƏDƏFLƏRİ



Göründüyü kimi, Azərbaycanla Çinin ikitərəfli münasibətləri qarşılıqlı anlaşma və dəstək prinsiplərinə söykənən ali səviyyəli bir mərama malikdir.

Bu münasibətləri daha dərin laylarda analiz etsək, belə fikir yürütməyə əsas yaranır ki, Bakı ilə Pekinin yaxınlaşması qlobal geosiyasi xarabalıqlar arasında səmərəli və konstruktiv əməkdaşlıq arayışlarını özündə ehtiva edir.

Təbii ki, Çinin son bir neçə ildə yeni zirvələri fəth etməyə qadir olan geoiqtisadi və geosiyasi rıçaqlar toplaması, ağıllı strategiya əsasında rəqibləri qarşısındakı duruşu Bakının diqqət mərkəzinə düşür.

Ona görədir ki, Bakı Pekinlə münasibətlərinin aldadıcı bir görünüş olmadığını nümayiş etdirərək Çinin strateji portfelinə qiymət verdiyini gizlətmir. Çünki Çin artıq qlobal səhnədə Qərblə Rusiya arasında şiddətlənən və az qala açıq müharibə fazasına keçə biləcək hədlər fonunda özünü alternativ bir güc kimi yetişdirib. Çin özünün çoxqütblü dünya nizamı idealını uğurla həyata keçirir. Azərbaycan isə sürətlə dəyişən dünyanın yeni geosiyasi nizamını təhlil edərək orada Çinin yerini əhəmiyyətli və zəruri nöqtələrdə görür. Söz yox ki, Çin də Azərbaycanın yüksəkprofilli strateji portfelə malik olduğunu başa düşərək Bakı ilə əlaqələrdəki şkalanın yuxarıya qalxmasını hədəfləyir. Beləliklə, Azərbaycanla Çin bir-birilərinə dost simalarını təqdim edərək qarşılıqlı dəstək mexanizmlərini yeni nizama uyğun şəkildə formatlayırlar.

### KEYFİYYƏTCƏ YENİ MÜSTƏVİ

Demək yerinə düşər ki, Prezident İlham Əliyevin Çindən gələn nümayəndə heyəti ilə görüşü Bakı ilə Pekinin yeni dünya nizamını təsvir edən ortaq baxışlara yanaşmasını da aktual edir.

Bu aktuallığın dərəcəsi kifayət qədər yüksək görünür. Buna görə ki, İlham Əliyevlə görüş zamanı Azərbaycanla Çin arasında siyasi, iqtisadi, sərmayə, nəqliyyat, yaşıl enerji, xalq diplomatiyası və digər sahələrdə əməkdaşlığın inkişafı Çin-Azərbaycan əlaqələrinin keyfiyyətcə yeni müstəviyə çatması fonunda qiymətləndirilib.

Mütləq şəkildə qeyd edilməlidir ki, regional və bəşəri siyasi sistemdə yeni geosiyasi ittifaqlar qlobal ticarət modellərin formatlanmasını formalaşdırılır.

Müzakirə əsnasında "Bir kəmər, bir yol" layihəsi, Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin (Orta Dəhliz) inkişafı, COP29 tədbiri ilə əlaqədar fikir mübadiləsinin aparılması iki dövlətin perspektivlə əlaqədar müştərək vizyonunu ortaya qoyur. Çinin Bakıda keçiriləcək COP29 tədbirinə dəstəyi Azərbaycan üçün böyük əhəmiyyət daşıyır.

#### TİCARİ RƏQƏMLƏR VƏ "ZƏNGƏZUR"

Azərbaycan və Çin arasında son illərdə ticarətin həcmi əhəmiyyətli şəkildə böyüyüb. Belə ki, 2015-ci ildə ticarət dövriyyəsi 561 milyon dollar, 2016-cı ildə 975 milyon dollar, 2017-ci ildə bir milyard 300 milyon dollar, 2018-ci ildə bir milyard 310 milyon dollar, 2019 və 2020-ci illərdə 2,1 milyard dollar, 2022-ci ildə 2,2 milyard dollar, 2023-cü ildə isə 3,1 milyard dollar təşkil edib. Hazırda Çin Azərbaycanın beş böyük ticarət tərəfdaşı arasında dördüncü yerdə qərarlaşır. İndiyə qədər Çindən ölkəmizə 1,5 milyard dollara qədər sərmayə yatırıldığı bildirilir. Öz növbəsində, Azərbaycan Çinə çoxhəcmli investisiya qoyuluşlarında pay sahibidir. Bu investisiyaların həcmi 1,7 milyard dolları ötür.

Şübhəsiz ki, Çin Cənubi Qafqazda Azərbaycanın irəli sürdüyü Zəngəzur dəhlizi layihəsinin reallaşmasını özünün yeni dünya düzənindəki yerini möhkəmləndirə biləcək alternativ formul kimi nəzərdən keçirir.

#### ƏRAZİ BÜTÖVLÜYÜNƏ QARŞILIQLI DƏSTƏK

Nəticə olaraq, İlham Əliyevlə Şen Yueyuenin müzakirələri böyük tabloda Bakı-Pekin əlaqələrinin dinamikasını əks etdirir. Bu dinamikanı saxlamaq və irəliyə aparmaq üçün Azərbaycan və Çin liderlərinin yeni görüşünün keçirilməsi üçün hazırlıqlar masadadır. İki dövlətin bir-birilərinin ərazi bütövlüyünə və suverenliyinə hörmətləri isə Tayvan mövzusunda qızışan emosiyalarda Azərbaycanın Pekinə dəstəyini gücləndirir. Bu həm də Çinin də BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biri kimi beynəlxalq platformalarda Azərbaycana dəstəyini əsirgəməyəcəyi mənzərəsini canlandırır.

# ERMƏNİ MÜXALİFƏTİ PARÇALANMAYA DOĞRU

Kilsə və Köçəryan dəstəsinin Tavuş vilayətində başlatdığı aksiya uğursuzluğa düçar olduqdan sonra tərəflər bu dəfə paytaxt İrəvanı hədəf seçiblər. Artıq bir müddətdir başıpozuq formada davam edən aksiyaların əsas məqsədinin kreslo davası olduğu üzə çıxıb.

FUAD ABASOĞLU



## MÜXALİFƏTİ PARÇALAYAN POST SAVAŞI

Siyasi planı olmayan və koordinasiyasız təşkil edilən "Vətən naminə Tavuş" hərəkatı İrəvanda da istədiyi kütləni meydanlara yığa bilmir. Rəqəmlər müxalifət mediası tərəfindən nə qədər şişirdilsə də, reallıq başqa mənzərəni ortaya çıxarır. Yaşananlar 2018-ci il hadisələrini xatırladır və törədilən təxribatlar Köçəryanın hakimiyyət illərində baş verənlərlə eynilik təşkil edir.

### SÖZ OYUNU, SAY YETƏRSİZLİYİ

Aksiyanın "rəhbəri" erməni keşiş artıq Köçəryan tərəfindən idarə edildiyini təkzib etməyi özünə lazım bilmir. Maraqlıdır ki, yürüş zamanı insanları dəfələrlə tərk edərək, Ermənistanın ikinci prezidenti ilə görüşə gedən keşişi keçmiş müdafiə naziri Seyran Ohanyan müşayiət edib. Qalstanyan görüşdən sonra bəyan edib ki, baş nazirin etimadsızlıq votumuna start verməkgərəkdir. Burada isə müxtəlif suallar üzə çıxır.

Əgər hakim fraksiya parlamentdə çoxluq təşkil edirsə, etimadsızlıq votumu necə elan ediləcək? Birincisi, Köçəryan və Sarkisyan fraksiyasında cəmi 35 deputat var. Ermənistan parlamentində isə etimadsızlıq votumunu gündəliyə salmaq üçün ən azı 36 səsə ehtiyac var. Elə bu səbəbdən də bir neçə gündür müxalifət mediasında "Mülki müqavilə" deputatları Srbazana dəstəyini bildirib", "hakim partiyanın müəyyən deputatları bizə qoşulur" tipli xəbərlər yayılır. Qalstanyanın mitinqdə adını çəkdiyi Rustam Bakoyan və Şirak Torosyan kimi deputatlar da sosial şəbəkələrdə Paşinyana dəstəklərini ifadə ediblər. Bu halda kilsə-Köçəryan ittifaqının yeganə ümidi müstəqil deputat İşxan Zakaryan olaraq qalır. Əgər müxalifət onu öz tərəfinə çəkə bilsə, etimadsızlıq votumunu parlamentin gündəliyinə salmaq mümkün olacaq. Amma hələ bu da qətnamənin qəbul edilməsi mənasına gəlmir, əksinə, hakim partiya səs çoxluğu ilə bu qətnaməni ilk oxunuşda tarixin küncünə göndərə biləcək. Çünki etimadsızlıq votumunun qəbul edilməsi üçün 54 səsə, yəni Paşinyanın partiyasından 18 deputatın səsinə ehtiyac var. Hadisələrin gedişatı isə belə bir ssenarini mümkünsüz edir.

Qətnaməni parlamentə təqdim etməzdən və tələb olunan 36 imzanı toplamazdan əvvəl Köçəryan, Sarkisyan və Qareginin qarşısında daha bir çətin vəzifə durur. Konstitusiyaya əsasən, baş nazirə etimadsızlıq bildirmək barədə qərar layihəsi yalnız o halda təqdim edilə bilər ki, onunla eyni vaxtda baş nazir vəzifəsinə yeni namizəd təklif olunsun. Bu isə artıq müxalif düşərgədə fikir ayrılığı və parçalanmaya səbəb olub. Çünki vahid namizəd ətrafında birləşmək hazırda qeyri-mümkün görünür. Bu namizəd Köçəryan, Sarkisyan və Qaregin üçün məqbul olmalı, etirazçıları da razı salmalıdır.

### KÖÇƏRYANIN XAM XƏYALI

Məsələn, Köçəryan öz namizədliyini təklif edə bilər. Amma onun namizədliyini digər müxalifət partiyaları ilə yanaşı, xalq da qəbul etməyəcək. Artıq siyasi tarixin zibilliyinə atılan və gün keçdikcə siyasi meyitə çevrilən Robertin siyasi arenaya qayıtması mümkünsüz görünür. Nə Kremldəki dayaqları, nə pulla istədiyini yazdıracağı media resursları və milyonçu dostları ona yardım edə bilməyəcək.

### SERJİN BİC DAVRANIŞI

Serj Sarkisyan isə Ermənistanın keçmiş ombudsmanı, "Tatoyan" fondunun rəhbəri, Azərbaycana qarşı sərsəm və axmaq bəyanatları ilə tanınan Arman Tatoyanı namizəd kimi göstərə bilər. Qərb dairələri ilə yaxşı münasibətləri olan və Rusiyanın bəzi siyasi kulislərində dəstək tapan Tatoyanın adı iki il əvvəl də baş nazir postuna namizəd kimi hallanmışdı. Amma hakim partiyanın müəyyən hərəkətləri nəticəsində Arman oyundan kənara çəkilərək, susqunluğa qərq olmuşdu. Bu dəfə də onun birdən-birə aktivləşməsi yenidən namizəd olmaq ümidi ilə əlaqəlidir. Çünki Baqrata qoşulanda siyasi ambisiyasının olmadığını desə də, uzun müddətdir könlündə baş nazir postuna yiyələnmək arzusunun olduğunu artıq hər kəs bilir.



### SRBAZANIN DA KÖNLÜNDƏN BAŞ NAZİRLİK KEÇİR

II Qareginin namizədi isə Baqrat Srbazan ola bilər. Erməni keşiş bir neçə dəfə belə bir ambisiyasının olmadığını desə də, sonradan valı dəyişib. O, jurnalistlərə bildirib ki, əgər qarşısına belə bir tapşırıq qoyulsa, bütün məsuliyyəti boynuna götürməyə hazırdır. Bununla da xoruzun quyruğu görünüb. Amma ortada bir əngəl var, Srbazanın eyni zamanda Kanada vətəndaşlığı da var. Artıq erməni müxalifəti onu oyundan kənar buraxmaq üçün bu xəbəri tirajlayıb. Ermənistan qanunlarına görə, hökumət başçısının ikili vətəndaşlığı ola bilməz.

Srbazan məqsədinə çatmaq üçün müvəqqəti keçid hökumətinin formalaşdırılmasını nəzərdə tutur. Amma istənilən halda, hadisələrin gedişatı kilsə-müxalifət tandeminin növbəti fiaskoya uğrayacağını göstərir.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

ÜÇ ƏSRİN QƏZETİ Kaspi





# İTİRƏN AVROPA İTTİFAQI OLACAQ

Son beş ildə ilk dəfə Avropaya səfər edən Çin lideri Fransa, Serbiya və Macarıstanda olub. Səfərin marşrutu təsadüfi seçilməyib. Həm Serbiya, həm də Macarıstan son vaxtlar müstəqil mövqedən çıxış edirlər. Bu Avropa dövlətləri Çinin Avropaya uzanan “Bir kəmər, bir yol” layihəsinə dəstək verirlər.



AZƏR NURİYEV

Beş illik fasilədən sonra Çin Xalq Respublikasının (ÇXR) sədri Si Cinpinin Avropa ziyarəti “triumfal səfər” kimi qiymətləndirilir. Həqiqətən də belədir. 500 nəfərlik böyük heyət, keçirilən tədbirlər bu səfəri dünya mediasında ən aktual məsələ kimi diqqətdə saxlayıb. Görünən odur ki, Pekin Avropanı fəth etməklə yanaşı, ABŞ-ni bölgədən sıxışdırıb çıxarmağa çalışır. Pekinin bu istiqamətdə uğurları da var. Məsələn, qitə Çin malları, investisiyası ilə aşıb-daşır, ölkələr onunla əməkdaşlığa üstünlük verir.

### USTALIQLA SEÇİLƏN SƏFƏR MARŞRUTU

Avropa turunun marşrutunu ustalıqla tərtib edən Çin lideri maraqlı bir dövr seçib. Ukrayna müharibəsi ilə bağlı Avropada ikitirəlik yaşanır. Bir qisim müharibənin tezliklə dayandırılmasını istəyir, digərləri Rusiyaya qarşı sanksiyaları artırmağa çağırır, başqa bir qisim isə bitərəf qalmağa üstünlük verir. Çin lideri də bu vəziyyətdən yararlanmağa çalışıb. Rəsmi Pekinin bu müharibə ilə bağlı mövqeyi ziddiyyətlərlə doludur. Əgər rəsmi Pekin ilk vaxtlarda hərbi əməliyyatlara biganə qalırdısa, sonradan Ukraynanın ərazi bütövlüyünün tərəfdarı qismində çıxış etdi. İndi isə Rusiyanın yanındadır. Səfər zamanı Çin rəhbəri birmənalı şəkildə bəyan etdi ki, Rusiyaya qarşı olan beynəlxalq tədbirlərə qoşulmayacaq. Bu isə o deməkdir ki, Ukrayna müharibəsi hələ uzun müddət davam edəcək.



Digər bir mühüm məsələ ondan ibarətdir ki, mayın 17-də Rusiya Prezidenti Vladimir Putin Çinə səfər edib. Liderlər BMT-nin gündəliyindəki qarşılıqlı fəaliyyətlə bağlı fikir mübadiləsi aparıblar. Burada Moskva və Pekin demək olar ki, bütün mövzularda həmrəydir.

### SON BEŞ İLDƏ İLK SƏFƏR

Beləliklə, son beş ildə ilk dəfə Avropaya səfər edən Çin lideri Fransa, Serbiya və Macarıstanda olub. Əvvəldən anons edilmişdi ki, Avropa paytaxtlarına səfərlər Çinin Fransa, Serbiya, Macarıstan və bütövlükdə Avropa ilə əlaqələrinin inkişafına töhfə, həmçinin qlobal dinc inkişafa yeni təkan verəcək. Səfərin əsas diqqət çəkən hissəsi Fransa ilə bağlıdır. Əksəriyyət hesab edir ki, Çin rəhbərinin Fransaya səfəri onun Avropa İttifaqı ölkələri ilə iqtisadi əlaqələrindəki mövcud problemləri həll etməyəcək. Buna misal olaraq, Çin liderinin Parisdə Makron və Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayenlə üçtərəfli görüşündə səslənən fikirləri qabardırlar.

## ÇİN LİDERİ AVROPALI HƏMKARLARI İLƏ NƏDƏN DANIŞIB?

Paris və Brüssel hesab edirlər ki, Çin dövlət investisiyaları hesabına Avropaya ixrac etdiyi məhsulların qiymətini süni şəkildə aşağı endirir və bu da qeyri-bərabər rəqabət yaradır. Xanım Ursula Aİ-nin mövcud vəziyyətdən narahatlığını açıq şəkildə Çinin diqqətinə çatdırıb.

Ümumiyyətlə, Çin lideri Fransada üç mövzunu ayrıca müzakirə edib ki, bunlardan birincisi Yaxın Şərqdəki gərginlik olub. Bu məsələdə ortaq mövqe bildirilib, həm Paris, həm də Pekin müstəqil Fələstin dövlətinin 1967-ci il sərhədlərində yaradılmasını dəstəkləyib. İkinci mövzu İranın nüvə proqramına aid olub. Liderlər İranın nüvə probleminin sülh yolu ilə həllinə tərəfdar olduqlarını bildiriblər. Üçüncü mövzu Rusiya-Ukrayna müharibəsi olub. Avropa dövlətləri Çin liderinin Kremlə təsir etməsini istəyir. Si Cinpin isə müharibənin dayandırılması üçün Kremlə təsir etmək fikrində deyil.

Serbiya və Macarıstana gəldikdə, bu iki dövlət Avropa ölkələri içərisində Çinlə əməkdaşlığa daha çox önəm verirlər. Çin Serbiyada və Macarıstanda yeni istehsal sahələri yaratmaq istəyir.

Digər maraqlı bir məqam ondan ibarətdir ki, səfər zamanı Pekinin siyasətinə qarşı sərt mövqedən çıxış etməyən, Avropaya uzanan “Bir kəmər, bir yol” layihəsinə dəstək verən ölkələr seçilib. Misal üçün, Çin liderinin İtaliyaya səfəri nəzərdə tutulmayıb. Çünki İtaliya “Bir kəmər, bir yol” layihəsindən çıxdığını bəyan edib.

## AVROPA BAZARI ƏHƏMİYYƏTLİ MİQDARDA KAPİTAL İTİRƏ BİLƏR

Bu arada Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Jozep Borrel bildirib ki, dünyanın aparıcı iqtisadiyyatları - Çin və ABŞ arasında strateji rəqabətin güclənməsinin əsas qurbanlarından biri Aİ ola bilər. O, Çin və ABŞ arasındakı rəqabətin “növbəti onillikdə dünya inkişafının əsas vektorunu müəyyənləşdirəcəyini” deyib. Borrel bildirib ki, Aİ iqtisadiyyatının rəqabət qabiliyyəti son vaxtlar təkcə Çinə deyil, ABŞ-yə də uduzmağa başlayıb. Bu tendensiya ortamüddətli perspektivdə davam edərsə, Avropa bazarı əhəmiyyətli miqdarda kapital itirə bilər. Onun fikrincə, buna bir sıra amillər, o cümlədən ABŞ-də enerji qiymətlərinin aşağı düşməsi, həmçinin Amerika maliyyə bazarının sabit vəziyyəti kömək edəcək.

### ÇİN ABŞ-Nİ GERİDƏ QOYACAQ

Qərb ekspertlərinin fikrincə, Çin liderinin bu səfəri daha çox daxili auditoriyaya yönəlib. Yəni səfər daxili istehlak üçün aydın bir siqnal göndərmək məqsədi daşıyıb: “Baxın, bizim Avropada dostlarımız var”, - demək istəyib. Məsələ ondadır ki, böyüyən Çin bazarı Avropanı tamamilə fəth etmək istəyini ortaya qoyur. Avropa bazarında faktiki olaraq ona rəqib olan biri yoxdur. ABŞ buna cəhd göstərsə də, səyləri nəticəsiz qalıb.

Hesablamalara əsasən, 2030-cu ildə Çin iqtisadiyyatı Birləşmiş Ştatları geridə qoyacaq. Mövcud problemlər tez bir zamanda həll edilməsə belə, iqtisadçılar Çin iqtisadiyyatının ildə dörd faiz artacağını proqnozlaşdırırlar.

Səfərdən sonra daha bir maraqlı olay yaşanıb. Vaşinqton milli təhlükəsizliklə bağlı narahatlıqları əsas gətirərək 37 Çin şirkətini sanksiya siyahısına daxil edib. Çox güman ki, bu qərar Çin liderinin Avropaya səfərinə cavabdır.

PROBLEMLİ KREDİTLƏRİN HƏCMİNİ AZALDAN SƏBƏBLƏR

# KREDİTLƏR VƏTƏNDAŞDAN BİZNESƏ KEÇİR

**Bir neçə aydır ölkədə problemli kreditlərin həcmində azalma müşahidə edilir. Ekspertlər bildirirlər ki, hazırda problemli kredit portfelinin əsas hissəsini istehlak yox, biznes kreditləri təşkil edir.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




2024-cü il martın 1-nə olan rəsmi məlumata görə, Azərbaycanda problemli kreditlərin məbləği son bir ildə 22,6 faiz azalıb. Vaxtı keçmiş kreditlərin məbləği 469,2 milyon manat təşkil edib. Qeyd edək ki, problemli kreditlərin həcmində azalma son bir neçə ayda ardıcıl müşahidə edilir. Əvvəlki dövrlərdə artan problemli kreditlərin hazırda azalmasına səbəb nədir?

**SƏRT QAYDALAR, VƏTƏNDAŞ MƏSULİYYƏTİ**

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, millət vəkili Vüqar Bayramovun sözlərinə görə, son bir ildə problemli kreditlərin azalması riskin qiymətləndirilməsi tendensiyası ilə bağlıdır: "Banklar tərəfindən kreditlər ayrıldıqda riskin qiymətləndirilməsi həyata keçirilir. 2019-cu ildən əvvəlki dövrdə bəzi banklar tərəfindən kütləvi kredit kartlarının verilməsi və borclanmanı müşahidə edirdik. Artıq Mərkəzi Bank bu prosesə nəzarət edir. Kreditlərin verilməsi, risk menecmentinin formalaşması, kreditin idarə edilməsi ilə bağlı yeni qaydanın tətbiqini həyata keçirir. Kredit üçün müraciət edən şəxsin gəliri ilə öhdəliyi arasındakı fərqin qorunmasına reydləri və normaları ilə təsir etməyə çalışır. Banklar da şərtləri sərtləşdirib. Həmçinin artıq vətəndaşlar da kreditə daha çox ehtiyac olduğu hallarda müraciət etməyə çalışırlar. Amma istisnalar da qaçılmazdır. Bu da problemli kreditlərin azalmasına gətirib çıxarıb".


Vüqar Bayramov

## ƏN CİDDİ MƏSƏLƏLƏRDƏN BİRİ ŞƏFFAFLIQDIR

V.Bayramovun fikrincə, arxayınlaşmaq olmaz, yenə də məlum istiqamətdə işlər görülməlidir: "Problemli kreditlərin azalmasındakı tendensiyanın bundan sonra da davam edəcəyi gözlənilir. Bunun üçün bankların risk menecment mexanizmi daha da təkmilləşməlidir. Həmçinin vətəndaşların ödəmə qabiliyyətinə əsasən kreditlərin verilməsi çox vacibdir. Bank sektorunda şəffaflığın və hesabatlılığın daha da artmasına ehtiyac var. Müflis olan banklarla bağlı aparılan təhlillər onu göstərir ki, ən ciddi məsələlərdən biri də məhz şəffaflıqdır. Şəffaflıq artdıqca problemli kreditlərin həcminin azaldığını da müşahidə edəcəyik".

**PROBLEMLİ KREDİT PORTFELİNİN ƏSAS HİSSƏSİ BİZNES KREDİTLƏRİDİR**

Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri Vüqar Oruc qeyd etdi ki, problemli kredit portfelinin əsas hissəsinə biznes kreditləri aiddir. Vətəndaşlarla bağlı problemlərin çox hissəsi həll edilib: "Problemli kreditlər portfelinin formalaşmasının səbəbləri kimi problem yaranan bankların müvafiq departamentlərinin riskləri tam nəzərə almaması, düzgün yanaşmanın tətbiq edilməməsi, müəssisələrin biznesinin təhlil edilməməsi, sahibkarın götürdüyü krediti geri qaytarmaq imkanını müəyyən etməməsi və digər halları göstərmək olar. Son dövrlər Mərkəzi Bankın tələbkarlığı artıb, bankların fəaliyyətinə müdaxilə etmədən işlərin müsbət istiqamətə yönləndirilməsi, müəyyən yeniliklərin tətbiq olunması müsbət təsir göstərib. Bankların müvafiq riskləri idarəedən departamentlərinin fəaliyyətində də dəyişiklik baş verib. Çünki kredit portfelinin birdən-birə şişməsi çox böyük problemlərə səbəb olmuşdu. Banklar bu sahədə diqqətin, məsuliyyətin artırılmasına önəm verdilər".

## AYAQLAŞA BİLMƏYƏNLƏR BİZNESLƏRİNDƏ PROBLEM YAŞAYIRLAR

V.Oruc bildirdi ki, problemli kreditlərin azalmasının digər səbəbi ölkədəki iqtisadi vəziyyətlə bağlıdır: "Hansısa sahədə yenilik olduqda ayaqlaşa bilməyənlər bizneslərində problem yaşayırlar. Onlar götürdükləri kreditləri ödəyə bilmirlər. Bu da problemli kreditlərin təbii şəkildə yaranmasıdır. Ölkədə baş verən iqtisadi inkişaf, biznes mühiti üçün yeni imkanların yaradılması, müxtəlif qurumlar tərəfindən verilən dəstək, azad sahibkarlığın inkişafı üçün şərait problemli kreditlərin azalmasına təsir göstərib".

**BANKLAR QİYMƏTLƏNDİRMƏ ŞİRKƏTLƏRİNƏ MÜRACİƏT EDİRLƏR**

V.Orucun fikrincə, problemli kreditləri azaldan digər amil qiymətləndirmə faktorudur: "Kreditlər götürüləndə banklar qiymətləndirmə şirkətlərinə müraciət edirlər. Bu sahədə tənzimlənmə fəaliyyətinin zəif olması əvvəlki dövrlərdə problemlər yaradırdı. Qiymətləndirmə şirkətləri peşə risklərini sığortalamalıdırlar. Yəni hansısa banka müəyyən bir zərər dəyirsə, qiymətləndirici şirkətlər və şəxslər buna görə məsuliyyət daşıyırlar. İndi isə bu sahəyə diqqət artıb. Şirkətlər daha peşəkar səviyyədə fəaliyyət göstərirlər. Bu baxımdan problemli kreditlərin azalması normaldır. Düşünürəm ki, dövr keçdikcə problemli kreditlər daha da azalacaq və bu sahədə sağlamlaşma müşahidə ediləcək".


Vüqar Oruc

UĞUR Kaspi 18 MAY ŞƏNBƏ 2024 9

"İSTİQBAL-1" DRON LAYİHƏSİNİN HƏMMÜƏLLİFİ, İNNOVASİYA VƏ SAHİBKARLIQ SAHƏSİ ÜZRƏ GƏNCLƏR ÜÇÜN PREZİDENT MÜKAFATÇISI SUAT MURADOV

# SİYASƏTLƏ BAŞLAYIB, DATA ALİMİ OLDU

SÖHBƏTLƏŞDİ

Zərif Salmanlı
zarifsalmanli@kaspi.az

"Uşaq olanda planetimizi xilas etmək istəyirdim. Hazırda vəziyyət o qədər pisləşib ki, bu prosesdə gərək bütün dünya iştirak edə. Lakin ümidlər var".

Bakı Atatürk liseyində təhsil alıb. Bir bakalavr, iki magistr dərəcəsi var. Bakalavr təhsilini ADA-da beynəlxalq münasibətlər ixtisası üzrə alıb, qırmızı diplomla bitirib. İlk magistr təhsili Duke Universitetində beynəlxalq ətraf mühit siyasəti üzrə olub. İkinci magistr təhsilini ABŞ-nin Nyu-York ştatında Sirakuz Universitetinin nəzdində olan ESF-nin tərkibində Meşəçilik və ətraf mühit kollecində alıb. Həmin universitetdə elmi işçi olaraq fəaliyyət göstərib. Hazırda ABŞ-nin Sent-Luis Universitetində metan qazının aşkarlanması üzrə tədqiqat köməkçisidir. Müsahibimiz Azərbaycanda yaradılan "İstiqbal-1" dron layihəsinin həmmüəllifi, innovasiya və sahibkarlıq sahəsi üzrə Gənclər üçün Prezident mükafatçısı, gənc Avropa səfiri Suat Muradovdur.

## "QARABAĞ MƏSƏLƏSİNİN HƏLL EDİLMƏSİNİ İSTƏYİRDİM"

Müsahibimiz bildirir ki, universitetə hazırlaşan dövrdə ya mühəndislik, ya da siyasət üzrə təhsil almaq istəyib. Sonda ikincini seçib: "ADA-da təhsil alanda 2016-cı il idi. O dövrdə münaqişələrin, əsasən də Qarabağ məsələsinin həll edilməsini istəyirdim. Münaqişələrin həlli dövlətlərarası olduğu üçün düşündüm ki, bu sahədə ən yaxşı təhsil verəcək universitet ADA-dır. Həmişə riyaziyyata, statistikaya, fizikaya marağım olduğu üçün mühəndislik sahəsinə də qəbul ola bilərdim. Amma bu sahədə yaxşı təhsil müəssisəsi görmədim. Düşünürəm ki, hər zaman sahəni dəyişmək mümkündür. Əsas başlamaq və nəyin daha uyğun olduğunu görməkdir".



## "UZAQ ŞƏRQDƏ SƏFİR OLMAQ İSTƏYƏRDİM"

Suat oxuduğu sahə üzrə daim aktiv fəaliyyətdə olub: "Beynəlxalq münasibətlər istiqamətində təhsil alarkən 2019-cu ildə Avropa Parlamentində Gənclər Fondunun dəstəyi ilə bir aylıq təcrübə keçdim. Müəyyən məktubların, press-relizlərin hazırlanması ilə tanış olurduq, nələrin baş verdiyinə şahidlik edirdik, iclaslara baxırdıq. Lobbi fəaliyyətini daha fərqli təsəvvür edirdim, əslində isə alınan və satılan imiş. Avropadakı tolerantlıq dedikləri qədər deyilmiş.

Beynəlxalq tədbirlərində aktiv iştirak etdiyim təşkilatlardan biri də İslam Əməkdaşlıq Təşkilatının Gənclər Forumunun Bakıdakı yerli komitəsi idi. Onların "Beynəlxalq İƏT Modeli 2019", "Voluntest 2020", "Beynəlxalq Gənclik Düşərgəsi 2021" tədbirlərində iştirak etmişəm. Ən yaddaqalan təcrübəm könüllü fəaliyyətinə görə "Voluntest 2020"də Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasını təmsil etməyim və qalib olmağım idi. Bundan əlavə, 2018-ci ildə Gənc Avropa səfiri seçildim.

Uzaq Şərqdə səfir olmaq istəyərdim. Çünki Uzaq Şərqdə, Çində Azərbaycanla az adam maraqlanır".

## MAGİSTRATURADA OXUYARKƏN ELMİ İŞÇİ KİMİ ÇALIŞAN TƏLƏBƏ

Suat magistr təhsilini iqlim, ətraf mühit məsələləri istiqaməti üzrə alıb: "Uşaqlıqdan iqlim məsələləri mənim üçün maraqlı olub. Bu səbəbdən, Duke Universitetinin Kunşan filialında ətraf mühit siyasəti ilə bağlı iki il təhsil aldım. Bir semestr də Durham filialında oxudum. Üç semestr Çində, bir semestr ABŞ-də idim. ESF-də ikinci magistratura təhsilimi almışam. Nyu-York ştatında Sirakuz Universitetindən sonra ikinci məşhur universitetdir. ESF əvvəllər onun tərkibində meşəçilik və ətraf mühit kolleci olub, sonradan Nyu-York Ştat Universiteti tərəfindən alınıb. Biz həm Sirakuz Universitetinin, həm də ESF-nin tələbəsi idik. Burada bərpa olunan enerji ilə bağlı həm magistr təhsili almışam, həm də elmi işçi olmuşam. Normalda yalnız doktorantura təhsili alarkən elmi işçi olmaq mümkündür. Ətraf mühitin qorunması agentliyinin proqramı əsasında tərk edilmiş sənaye rayonlarında günəş enerjisi potensialının analizini aparırdım".

"Hazırda Federal Aviasiya Administra-siyasından rəsmi sertifikat almışam, uzaqdan uçuş, yəni dron pilotuyam. Dronları ətraf mühit həlləri üçün istifadə edirəm"

## "YAYDA DOKTORANTURA PROQRAMINA BAŞLAYACAĞAM"

Müsahibimiz indi də metan qazı üzrə araşdırmalar aparır: "Hazırda ABŞ-də Sent-Luis Universitetinin nəzdindəki "AI CHESS" laboratoriyasında qlobal istiliyin artmasına səbəb olan metan qazının aşkarlanması və hesablanmasına yönəlik data və süni intellekt modellərinin istifadəsi ilə bağlı təhlilçi və tədqiqat köməkçisiyəm. İşimiz ABŞ-də ətraf mühitin qorunması agentliyinin qrantı ilə yeddi tullantı poliqonunun analizi, orada metan qazının aşkar edilməsi, hesablanması, proqnozlaşdırılması ilə məşğul olmaqdır. Yayda həmin universitetdə coğrafi informatika və məkan analizi ilə bağlı doktorantura proqramına başlayacağam".

## "UŞAQ OLANDA PLANETİMİZİ XİLAS ETMƏK İSTƏYİRDİM"

Suatın ən böyük istəklərindən biri dünyamızı məhv olmaqdan qurtarmaqdır: "Uşaq olanda planetimizi xilas etmək istəyirdim. Hazırda vəziyyət o qədər pisləşib ki, bu prosesdə gərək bütün dünya iştirak edə. Lakin ümidlər var. Növbəti illərdə isinməni azaltmaq istəyirik. Elə ağaclar yetişdirmək olar ki, tez böyüsün, enerji üçün kəsilsin. Məsələn, söyüd ağaclarının müəyyən növlərini ildə 3-4 dəfə yetişdirib kəsməklə karbon qazını müəyyən qədər də olsa azaltmaq mümkündür. Burada ən önəmli məsələ əməkdaşlıqdır. Azərbaycanımıza verəcəyimiz fayda planetimizə verdiyimiz faydadır. Xəzər dənizinin səviyyəsində tez-tez enmələr qeydə alınır, su stressi çoxdur, çaylarımız quruya bilər, tullantı poliqonları azdır, yaşıl örtüyümüz kifayət qədər deyil. Qonşu ölkələrdə tikilən su elektrik stansiyaları su çatışmazlığına səbəb olur. Məsələn, Türkiyədə Kürün üzərində 5-6 stansiya tikilməsi bizdə də azalmaya səbəb olur. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədinin özəyində dayanan 5 əsas məsələdən biri də məhz ölkəmizin təmiz ətraf mühit və "yaşıl artım" modelini mənimsəməsi ilə əlaqədardır. Enerji, ətraf mühit, karbon emissiyaları məsələləri həmin strategiyamızın əsasını təşkil edir".



## "HAZIRDA KÜLƏK ENERJİSİNİ ARAŞDIRIRAM"

*Suatın daima maraqlandığı və ölkəmizdə tətbiq etmək istədiyi layihələr də var: "Bərpaolunan enerji həvəskarı kimi 2012-2013-cü ildən bəri külək enerjisini araşdırıram. Bu sahədə müxtəlif texnologiyaların təşviqi ilə məşğul olmuşam. Magistr tezisim olan layihəni keçən il "Hakaton"da təqdim edəndən sonra Energetika Nazirliyinin müşaviri ilə bu barədə müzakirələr apardıq. Bu layihə konteynerlərə sabitlənən çərpələnglərdən enerji almaq barədədir. Ona havadan külək enerjisi deyirik. Konsepti yelkənə bənzəyir. Mərkəzə sensor qoyulur və küləyin istiqamətinə uyğun dönür, maksimum enerji götürür. 100 metr hündürlüyə qaldırmaq mümkündür. Orada külək daimidir. Həm az yer tutur, həm də təkrar istehsalı asandır. Ənənəvi turbinlər tullantı poliqonunda çürümürlər və radioaktiv maddəyə çevrilirlər. Bu isə konteynerdir, kabeldir, parçadır. Onları ayrıca istifadə etmək olar. Bu istiqamətdə araşdırmalar Avropada kifayət qədər məşhurdur. Mən də ölkəmizdə tətbiqi üçün bir çox hesablamalar aparmışam".*

Fotolar: Rüfət Mikayılov/Global Media Group




## DRON LAYİHƏSİNİN HƏMMÜƏLLİFİ

Müsahibimiz həmçinin dron layihəsinin həmmüəllifidir. Bu layihənin əsas qurucusu isə Həsən adlı oğlandır: "Müharibə yeni başlamışdı. Həsən komanda yığırdı. Türkiyə, Gürcüstan, Rusiya, Latviya təşkilatları ilə əlaqə yaratmaq üçün beynəlxalq münasibətlər departamentini yaradanda məni direktor kimi çağırmışdı. İlk başda ona güvənməmişdim. 13 yaşı var idi. Bir neçə onlayn görüşdən sonra anladım ki, onunla çox yaxşı dost ola bilərik və hazırda elədir. 5-6 dəfə komandamız yığıldı və dağıldı. Amma mən, Həsən və qardaşım Nicat komandada yenə də qaldıq. Hətta texniki komandamızı toplayaraq, Qaxda prototipimizin test uçuşlarını uğurla həyata keçirdik. Daha çox ixtisaslaşmağa çalışdıq, mən də bu sahədə fərqli addımlar atdım. Hazırda daha çox tədqiqat hissəsindəyəm".

## "HƏDƏFİ ÇATA BİLMƏYƏCƏYİMİZ SƏVİYYƏDƏ QOYSAYDIQ..."

Suat deyir ki, gələcəkdə kosmik layihələr üzrə işləmək istəyirlər: "Həsən startapı ilk başda aerokosmik sahədə etmək istəyirdi, hava gəmisi kimi düşüncələrlə başlamışdı. Dron ideyası mənim dövrümdə yarandı. Əslində dron və kosmik gəmi çox da fərqli deyil, hər ikisi uçuş vasitələridir. Amma kosmik aparatlar üçün tamamilə fərqli resurslar və düşüncə lazımdır. Ona görə təklif etdim ki, kiçik aparatlardan başlayaq. Pilotsuz uçuş aparatları daha real idi. Öz üzərimizdə çalışdıq və nəticədə sahibkarlıq və innovasiya üzrə Gənclər üçün Prezident mükafatı ilə təltif edildik. Hədəfi çata bilməyəcəyimiz səviyyədə qoysaydıq, ruh düşkünlüyü yaşayacaqdıq və hazırkı səviyyəyə çatmağımız müşkül olacaqdı. Qarşıdakı planlarda kosmik layihələri icra etmək də var. Bu, növbəti on ilin məsələsidir".

## "DATA ALİMİ OLACAĞIM AĞLIMDAN BELƏ KEÇMİRDİ"

Suat bildirir ki, onu elm sahəsinə gətirən də elə məhz layihələri olub: "Əvvəllər data alimi olacağımı ağlımdan belə keçirməzdim. Amma bütün fəaliyyətim, təcrübələrim məni bugünkü sahəyə gətirdi. Dərəcəmi layihəmə əsasən seçdim. Hazırda Federal Aviasiya Administrasiyasından rəsmi sertifikat almışam, uzaqdan uçuş, yəni dron pilotuyam. Dronları ətraf mühit həlləri üçün istifadə edirəm. Datanı daha tez, keyfiyyətli və ucuz toplayırlar. Həm də helikopter pilotu layihəsini vermişəm. Praktikasını tamamladıqdan sonra helikopterlə araşdırmalar üçün məlumatlar toplamaq mümkün olacaq. Alimlər sahələri ilə bağlı müəyyən biznes və sahibkarlıq fəaliyyəti qururlar. Bu, müştəriyönümlü tədqiqat adlanır. Müştərilər universitetlərə müraciət edir ki, onlar üçün həllər versinlər. Mən də bunu özüm üçün hədəf qoymuşam. İşimin əsasını qurmaq üçün elmlə məşğulam".

## SUATIN YENİ HƏDƏFLƏRİ

Müsahibimizin qarşısına qoyduğu ən böyük hədəf dünya miqyasında tanınmaq və şirkətlərlə beynəlxalq əməkdaşlıq etməkdir: "Bir neçə hədəfim var ki, onları yerinə yetirdikdən və bacarıqlarımı inkişaf etdirdikdən sonra toplayacağım datanı istifadə edib müəyyən mülahizələr, modellər, simulyasiyalar hazırlamağa nail olacağam. Ətraf mühit xidmətlərinin, konsultasiya, hökumət və qeyri-hökumət təşkilatlarına xidmətlərin təklifi ilə məşğul olmaq istəyərdim. Müxtəlif şirkətlərə konsultasiya keçən qlobal şirkətlərin modeli ilə davam etməyi düşünürəm. Əvvəllər dataların toplanması, onların əməliyyatı, analizi, statistikanın çıxarılmasını başqa şirkətlərlə edəcəkdiksə, indi bunu həm konsultasiya, həm texniki xidmət kimi təklif etməyi planlaşdırıram. Tədqiqat metodlarından yararlanmaq üçün heç bir data yoxdur. Məlumatsızlıq analiz etməyə imkan vermir. Ona görə bu sahədə xidmət göstərmək istəyərdim. Beynəlxalq səviyyədə fəaliyyət göstərib hər ölkədən sahəmlə maraqlanan şəxslər tapa biləcəyimə, tələbin çox olacağına, 2035-2036-cı ildə şirkət kimi püxtələşəcəyimizə inanıram".

# SÜRƏTLİ BAHALAŞMA DÖVRÜ BİTDİ?



Son aylarda istər beynəlxalq qurumlar, istərsə də Mərkəzi Bank tərəfindən inflyasiya proqnozları azalan xətt üzrə yenilənib. Ekspertlər daxili bazarda bahalaşma tendensiyasının zəiflədiyi qənaətindədirlər.

**SEVİNC ABBASOVA**

Azərbaycan Mərkəzi Bankı 2024-cü ilə inflyasiya proqnozunu (2024-cü ilə 3,5 və 2025-ci ilə 4,2 faiz) azaldıb. Məlumata görə, inflyasiyanın artırıcı və azaldıcı riskləri bir-birini tarazlaşdırır. “Mövcud şərtlərin dəyişməz qalacağı təqdirdə 2024-cü və 2025-ci illərdə illik inflyasiyanın hədəf daxilində (4+2 faiz) qalacağı gözlənilir. Apreldə 2024-cü ilə inflyasiya proqnozu azalma istiqamətində dəyişdirilib”, - deyə AMB bəyan edib.

Mərkəzi Bankda hesab edirlər ki, inflyasiyanın xarici fonu əlverişli olaraq qalır: “Qlobal inflyasiya dünya əmtəə qiymətlərinin aşağı düşməsi nəticəsində yavaşlayıb. Manatın nominal effektiv məzənnəsinin (2023-cü ildə 19,3 faiz və 2024-cü ilin I rübündə 2,7 faiz) bahalaşması idxal inflyasiyasının azalmasına əlavə töhfə verib”.

Bəs görəsən bu statistika, Mərkəzi Bankın proqnozunu dəyişməsi daxili bazarda artıq sürətli bahalaşma dövrünün sona çatmasının elanı kimi dəyərləndirilə bilərmi?

Qeyd edək ki, bu ilin yanvar-aprel aylarında Azərbaycanda istehlak qiymətləri indeksi 2023-cü ilin eyni dövrü ilə müqayisədə 100,7 faiz, aprel ayında ötən ilin eyni ayına nisbətən 100 faiz, aprel ayında əvvəlki aya nisbətən 99,9 faiz təşkil edib.

### BEYNƏLXALQ QURUMLAR DA İNFLYASİYA PROQNOZLARINI YENİLƏYİRLƏR

Bir müddət əvvəl aparıcı beynəlxalq qurumlar da Azərbaycanda inflyasiyaya dair yenilənmiş proqnozlarını açıqlayıblar. Məsələn, Beynəlxalq Valyuta Fondu bu il Azərbaycanda orta illik inflyasiyanın 3,5 faizə qədər azalacağını, 2025-ci ildə beş faiz, 2029-cu ildə isə dörd faiz səviyyəsində olacağını proqnozlaşdırır. Halbuki qurumun oktyabr hesabatında bu il üçün inflyasiya 5,6 faiz proqnoz edilirdi.

Birləşmiş Millətlər Təşkilatının proqnozlarına görə, bu il Azərbaycanda orta illik inflyasiya 5,9 faiz təşkil edəcək, 2025-ci ildə 3,9 faizədək azalacaq. Dünya Bankının qiymətləndirmələrinə görə, Azərbaycanda illik inflyasiya 2024-cü ildə üç faiz, 2025-ci ildə 3,5 faiz, 2026-cı ildə dörd faiz təşkil edəcək. Orta illik inflyasiya isə ortamüddətli perspektivdə 2,2 faiz səviyyəsində gözlənilir. Asiya İnkişaf Bankının proqnozlarına görə, 2024-cü ildə Azərbaycanda orta illik inflyasiya 5,5 faiz təşkil edəcək, 2025-ci ildə isə 6,5 faizədək yüksələcək.

“S&P Global Ratings” beynəlxalq reytinq agentliyinin bu il Azərbaycanda inflyasiya ilə bağlı gözləntiləri isə 3,5 faiz səviyyəsindədir.

Niderlandın “ING Group”u da ölkəmizdə inflyasiyanın kəskin şəkildə azalacağını proqnoz edib. Qurum ekspertlərinin fikrincə, 2024-cü il üçün Azərbaycanda orta illik inflyasiya 1,6 faiz, 2025-ci ildə 3,8 faiz, 2026-cı ildə isə 4,2 faiz səviyyəsində olacaq. Bu il üçün açıqlanan yeni proqnoz aprel ayındakı gözləntilərə nisbətən 1,5 faiz bəndi azalıb, gələn il üçün dəyişməyib. Proqnozlara əsasən, 2024-cü ilin birinci rübündə Azərbaycanda orta illik inflyasiya 1,3 faiz, ikinci rübdə 0,1 faiz, üçüncü rübdə 1,3 faiz, dördüncü rübdə isə 2,6 faiz səviyyəsində gözlənilir. 2025-ci ilin birinci rübündə isə ölkəmizdə orta illik inflyasiya 3,5 faiz, ikinci rübdə 4,1 faiz, üçüncü rübdə isə 3,9 faiz nəzərdə tutulub.

## “İNFLYASİYANIN AZALMASI DAVAM EDƏCƏK”

İqtisadçı ekspert Xalid Kərimli isə hesab edir ki, dünyada inflyasiyanın azalması fonunda daxili bazarda sürətli bahalaşma tendensiyası zəifləyib. Onun sözlərinə görə, həm beynəlxalq qurumların, həm də Mərkəzi Bankın inflyasiya ilə bağlı proqnozlarını yeniləməsi bunun bariz nümunəsidir: “Bizdə müəyyən qədər yerli istehsal olsa da, əsas məhsulları xaricdən idxal edirik. Hətta yerli istehsalın dəyər zəncirinin əhəmiyyətli hissəsi xaricdə formalaşır. Tutaq ki, bu gün Azərbaycanda quş ətinə olan tələbatın 75-78 faizi ölkə daxilində istehsal olunur. Amma yem komponenti xaricdən idxal edilir. Yəni, biz öz ölkəmizdə nə isə istehsal etsək belə, onun qiyməti dünya əmtəə bazarında formalaşır. Nəticədə dünya bazarındakı qiymət dəyişimləri bizim bazarlara da təsir göstərir. Bu mənada təbii ki, dünyada inflyasiya azalırsa, həmin tendensiya bizdə də müşahidə olunmalıdır. Gözlənti bundan ibarətdir ki, inflyasiyanın aşağı düşməsi davam edəcək. Bu baxımdan indiki halda Azərbaycanda da artıq sürətli bahalaşma dövrünün azaldığını elan etmək olar”.



Xalid Kərimli

## “QİYMƏTLƏRİN SABİTLƏŞMƏSİ BİZİ ARXAYINLAŞDIRMAMALIDIR”

İqtisad üzrə elmlər doktoru, professor Elşad Məmmədovun fikrincə, Azərbaycanda inflyasiyaya təsir göstərən əsas faktorlar idxal payının çox olması və yerli istehsalın lazımi həcmdə olmamasıdır. Ekspert hesab edir ki, son aylar dünya bazarında qiymət artımının zəifləməsi nəticəsində inflyasiyanı daha az idxal edirik: “Ona görə də bu, yerli bazarlarda istər-istəməz hiss olunur. Lakin xarici amillərdən hələ də çox asılıyıq. Bu asılılıq şübhəsiz ki, tədricən aradan qaldırılmalıdır. Bunun əsas yolu yerli istehsalın lazımi həcmdə və səviyyədə formalaşmasından ibarətdir. Bu məqsədlə Mərkəzi Bank pul-kredit siyasətini yumşaltmalıdır. Eyni zamanda, real sektorun inkişafına doğru kreditləşmə artmalıdır”. Mütəxəssis vurğulayıb ki, dünya bazarlarında qiymətlərin sabitləşməsi bizi arxayınlaşdırmamalıdır: “Düzdür, bu gün dünyada inflyasiya sürəti zəifləyir. Amma hazırda dünya iqtisadiyyatı çox çətin vəziyyətdədir. Böhran hələ özünün pik nöqtəsinə çatmayıb. Gələcəkdə qiymətlərin yenə kəskin bahalaşmasını gözləmək olar. Belə olan halda biz inflyasiyanı məcbur olub yenə də idxal edəcəyik. Ona görə maksimum dərəcədə çalışmalıyıq ki, yerli istehsalın həcmi artsın”.



Elşad Məmmədov


Kaspi
ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Könül Cəfərli, Sevinc Abbasova, İlhamə Əbülfət, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Laləə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 1112
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# ELEKTRON TİCARƏTİ POPULYARLAŞDIRAN SƏBƏBLƏR

Araşdırmalar göstərir ki, insanlar ənənəvi mağazalardan alış-verişi elektron ticarət platformaları ilə əvəzləyiblər. Növbəti illər üçün texnologiyanın daha əlçatan və münasib olacağını nəzərə alan ekspertlər elektron ticarətin yaxın zamanda ənənəvi ticarətə daha ciddi rəqib olacağı qənaətindədirlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




Mərkəzi Bankın məlumatına görə, ötən il Azərbaycanda elektron ticarətin dövriyyəsi təxminən 41 milyard manat olub. Ölkədaxili elektron ticarət əməliyyatlarının həcmi 39 milyard, ölkəxarici isə təxminən iki milyard manat təşkil edib. Yəni ötən il xaricdən onlayn formada iki milyardlıq alış-veriş etmişik. Beş il öncə bu rəqəm ümumilikdə ölkə üzrə iki milyard olub. Kifayət qədər böyük olan bu artım nəyin göstəricisidir?

### ELEKTRON TİCARƏTİ ARTIRAN SƏBƏBLƏR

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin operatoru olduğu "Azexport" portalının rəhbəri Ayxan Qədəşov bildirir ki, ölkəmizdə elektron ticarətin sürətlə artmasına təsir edən amillər mövcuddur: "Azərbaycanda informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı qəbul olunub. Ölkənin tranzit informasiya dəhlizi imkanlarının genişləndirilməsi, beynəlxalq internet magistrallarına alternativ və yüksəksürətli birləşmələrin təmin edilməsi proqramın məqsəd və vəzifələrindəndir. Bu da vətəndaşların elektron ticarət imkanlarına əlçatanlığının təmin olunmasında ciddi rol oynayır. "Azexport" elektron ticarət portalının dəstəyi ilə sahibkarlara yerli və beynəlxalq bazarlarda elektron ticarət əməliyyatları həyata keçirmək üçün yeni dəstək mexanizmləri təqdim olunub, müxtəlif təlim və seminarlar həyata keçirilib ki, bunlar da elektron ticarətə olan marağın artmasına dəstək olub. Elektron ticarətin böyüməsinə əsas təkanverici amillərdən biri "COVID-19" pandemiyası olub. Qapanmalar insanları və biznesləri elektron ticarətdən istifadəyə məcbur etdi".

### NAĞDSIZ DÖVRİYYƏNİN ƏSAS STİMULU

A.Qədəşovun sözlərinə görə, elektron ticarət hər kəs üçün daha sərfəlidir: "Elektron ticarət müəyyən xərclərdən azaddır. Düzdür, elektron ticarət platformalarının saxlanması üçün də resurs tələb olunur, lakin bu, ənənəvi ticarətdə olduğu qədər deyil. İstehsalçı elektron ticarəti seçməklə xərclərə qənaət edir. Bu da məhsulun maya dəyərinin aşağı düşməsi ilə nəticələnir. Elektron ticarət müxtəlif məhsullar üzrə araşdırma və müqayisəli təhlillərin aparılması üçün rahat mühit təqdim edir. Elektron ticarətdə qısa müddət ərzində müxtəlif təchizatçıların təkliflərini araşdırıb ona uyğun qərar vermək olur. Statistika da göstərir ki, əhalinin böyük qismi bir məhsulu almamışdan öncə ilkin araşdırmanı müxtəlif internet platformaları üzərindən həyata keçirir. Elektron ticarət nağdsız dövriyyənin əsas stimuludur. Nağdsız dövriyyənin genişlənməsi bankların likvidlik səviyyəsinin qorunmasında ciddi əhəmiyyətə malikdir. Banklar tərəfindən nağdsız ticarət əməliyyatlarının aparılması qarşılığında müxtəlif bonus mexanizmləri bazara təqdim olundu. Bu da dövriyyənin artmasına ciddi təkan verdi".

Ekspertin fikrincə, elektron ticarətin növbəti mərhələsi kimi süni intellekt, artırılmış reallıq və virtual reallıq kimi texnologiyalardan istifadə etməklə rəqəmsal biznes mühitinin yaradılması hədəflənir. Elektron ticarətin qlobal pərakəndə ticarətdə payı da son 10 ildə 20 faiz üzərindədir. Hazırda ölkəmizdə internet infrastrukturu genişləndirilir, sosial şəbəkələrin imkanlarından marketinq aləti kimi istifadəyə daha çox diqqət ayrılır, mobil telefonların elektron ticarət üçün imkanları genişlənir.


Samir Mehdiyev
Ayxan Qədəşov

## QLOBAL STATİSTİKALAR GÖSTƏRİR Kİ...

A.Qədəşov qeyd etdi ki, gələcək illərdə elektron ticarətin həcmində daha böyük artımlar gözlənilir: "Qlobal statistika göstərir ki, 2023-cü ildə 2.64 milyard insan elektron ticarətdən istifadə edib. Ekspertlər proqnozlaşdırırlar ki, bu rəqəm 2024-cü ildə 2.71 və 2025-ci ildə 2.77 milyard olacaq. Beynəlxalq elektron ticarət sahəsində liderlərdən olan "Amazon" platformasının ABŞ, Kanada və Meksika bazarlarında istifadə olunan qolu 2022-ci ildə bir ay ərzində üç milyarddan artıq ziyarət olunub. Araşdırmalar onu göstərir ki, insanlar elektron ticarət platformalarında zaman keçirib alış-veriş etməyi ənənəvi mağazalardan alış-veriş ilə əvəzləyiblər. Texnologiyanın daha əlçatan və münasib olacağını, həmçinin yeni yetişən nəslin bu istiqamətə daha maraqlı olmasını nəzərə almaqla deyə bilərik ki, elektron ticarət növbəti illərdə ənənəvi ticarətə daha ciddi rəqib olacaq".

### "İNTERNET İSTİFADƏSİ YAŞI GƏNCLƏŞİR"

Rəqəmsal marketinq mütəxəssisi Samir Mehdiyev isə dedi ki, onlayn ödənişlər də elektron ticarətin artmasına təsir göstərir: "Elektron ticarətin artımının əsas səbəbi insanların onlayn alış-verişə olan marağıdır. İnsanlar artıq oturduqları yerdən istədikləri hər şeyi - geyim, ərzaq - sifariş edə bilirlər. Xarici alış-verişin də artmasına səbəb bu amillərdir. Banklar, onlayn ödəmə platformaları və şirkətlərin onlayn ödəmə zamanı təqdim etdiyi üstünlüklər rəqəmlərin artımına təsir göstərir. Daxili dövriyyədə xüsusi çəki kommunal, kredit ödənişləri və s. digər onlayn ödənişlərdir. Onlayn ödəmə ilə elektron ticarət dövriyyə rəqəmləri fərqli göstərilməlidir. Əvvəllər bu rəqəmlərin böyük hissəsi paytaxt əhalisinin payına düşürdü. Artıq ən ucqar kənddə yaşayanlar belə, onlayn ödənişləri rahatlıqla edə bilirlər. İllər keçdikcə onlayn ödənişlərin həm sayı, həm də məbləğinin artacağını düşünürəm. Çünki mobil telefon və internet istifadəsi yaşı gəncləşir, orta və yuxarı yaş insanlar da bu imkandan aktiv istifadə edirlər".

# KASIBIN MAŞINI OLMAYACAQ?

Köhnə nəqliyyat vasitələrinin dövriyyəsinin məhdudlaşdırılacağı ilə bağlı məlumata reaksiya heç də birmənalı deyil. Ekspertlər bu məsələdə vətəndaşların da mövqeyinin nəzərə alınmasını vacib sayırlar.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az



Artıq neçə müddətdir ki, köhnə, ekoloji cəhətdən zərərli sayılan avtomobillərə sahib olanlar səksəkədədir. Kimisi avtomobillərinin məcburi şəkildə əlindən alınacağını düşünür, kimisi icbari utilizasiyadan danışır. "Kasıbın maşını olmayacaq" deyənlər də az deyil.

Ötən həftə isə mətbuatda köhnə nəqliyyat vasitələrinin dövriyyələrinin məhdudlaşdırılması üçün təkliflərin hazırlanacağı ilə bağlı xəbərlər yayıldı. Belə ki, təkliflər Azərbaycanda istismarı ekoloji cəhətdən zərərli sayılan fiziki və mənəvi cəhətdən köhnəlmiş nəqliyyat vasitələrinin ətraf mühitə təsirinin qiymətləndirilməsi, onlardan istifadənin və dövriyyələrinin məhdudlaşdırılması məqsədi daşıyacaq. Layihə Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyasının ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması və infrastrukturunun təkmilləşdirilməsi üzrə 2024-cü il üçün Yol Xəritəsində əksini tapıb.

Maraqlıdır, təkliflər necə hazırlanacaq? Köhnə avtomobil sahiblərinə güzəştlər nəzərdə tutulacaqmı? Yoxsa, həqiqətən kasıbın avtomobili olmayacaq?

**"VƏTƏNDAŞIN MARAĞI NƏZƏRƏ ALINMALIDIR"**

Yol-nəqliyyat infrastrukturu üzrə ekspert Yasin Mustafayev deyir ki, hazırda könüllü şəkildə köhnə nəqliyyat vasitələrinin utilizasiya prosesinə start verilib: "Yəni, kim istəsə, işlək, yararsız, yaxud qəzalı vəziyyətdə olan nəqliyyat vasitəsini təhvil verə biləcək və ödənişini alacaq. Qiymətlər isə standartdır. Bir müddət sonra utilizasiya prosesi başlayacaq".

Mütəxəssis deyir ki, atılan hər addımda vətəndaşın marağı təmin edilməli, proses vətəndaşın xeyrinə olmalıdır: "Bu gün, xüsusilə bölgələrdə, kəndlərdə yaşayan vətəndaşlar 70-80-ci illərin istehsalı olan nəqliyyat vasitələrindən istifadə edirlər. Köhnə olsa da, kəndlinin əlindən tutur. Fikrimcə, ilkin mərhələdə bu avtomobillərin utilizasiyası başlayacaq. Düzdür, bu avtomobillər ekoloji cəhətdən zərərli olduğu üçün dövriyyədən tamamilə çıxarılmalıdır, amma bunun üçün vətəndaşa sərfəli təklif verilməlidir. Ən azından, hazırda istifadə etdiyi nəqliyyat vasitələrinin səviyyəsinə nisbətən uyğun nəqliyyat vasitəsi verib, əlindəkini almaq olar. Yaxud yeni bir nəqliyyat vasitəsi ala bilmək üçün ona müəyyən qədər vəsait verilməlidir. Utilizasiya üçün nəzərdə tutulan 2500 manat vətəndaşa sərf etmir. Çünki o, həmin qiymətə avtomobil ala bilməz. Ona görə də bu problemin həlli ilə bağlı proqram qəbul edilməlidir, təkliflərdə nəzərə alınmalıdır".

**"MÜVAFİQ İCRA MEXANİZMİ HAZIRLANACAQ"**

Mütəxəssis deyir ki, proqramda nəqliyyat vasitəsinin işləkliyi, yaxud tam yararsızlığı nəzərə alınıb, ona uyğun vəsait ödənilməlidir: "Köhnə avtomobillər sıradan çıxdıqda, müəyyən güzəştli qiymətlər əsasında ölkədə istehsal edilən avtomobillərin satışı təşkil oluna və vətəndaşa təklif edilə bilər. Bu, köhnə avtomobil sahiblərinin nəqliyyat vasitələrindən imtina etməsini stimullaşdıracaq. Bütün tərəflərin maraqlarını təmin edəcək bir strategiya hazırlanmalıdır. Düşünürəm ki, köhnə avtomobillərin dövriyyədən çıxarılması prosesinə yanaşmanın formalaşdırılması üçün müvafiq icra mexanizmi hazırlanacaq. İnsanların nəqliyyat vasitəsini əlindən alıb iflic etmək düzgün yanaşma olmaz".

**"ÖLKƏDƏKİ AVTOMOBİLLƏRİN 70 FAİZİ KÖHNƏDİR"**

Nəqliyyat eksperti Eldəniz Cəfərov isə deyir ki, istehsalçı tərəfindən verilən zəmanət müddəti bitən avtomobillər köhnə avtomobil sayılır. Onların ölkə daxilinə idxalı artıq məhdudlaşdırılıb: "Ötən ilin mart ayında Nazirlər Kabinetinin qərarı ilə yaşı 10 ildən çox olan minik avtomobillərinin ölkəmizə idxalı qadağandır. Ölkə daxilində isə köhnə avtomobillərin istismarının dövriyyəsinin məhdudlaşdırılması ilə bağlı hazırda ümumiyyətlə məlumat yoxdur və düşünmürəm ki, bu, qısa müddətdə həyata keçirilsin. Çünki ölkədəki avtomobillərin 70 faizi köhnədir. Məhdudlaşdırılma isə hazırda ölkəyə daxil olan avtomobillərə aiddir. Hazırda proses əsasən taksi kimi fəaliyyət göstərən minik avtomobilləri ilə bağlıdır. Çünki taksidə istismar olunacaq nəqliyyat vasitələrinin yaşı səkkiz ildən çox olmamalıdır və onlar yeni mövsümdə artıq "Avro 5" ekoloji standartına cavab verməlidirlər".

## "AVRO 5"-Ə KEÇİD REALLAŞA BİLƏR

Mütəxəssis deyir ki, artıq qonşu Gürcüstanda "Avro 5" standartına cavab verməyən avtomobil idxal olunmur və orada satılmır: "Ölkəmizdə hazırda ekoloji standart olaraq "Avro 4" qəbul olunub. Ola bilər ki, gələn ildən "Avro 5"-ə keçid olsun".

**"GÖZÜMÜZÜN ÖNÜNƏ KÖHNƏ SOVET AVTOMOBİLLƏRİ GƏLİR"**

Məhdudlaşdırılma ilə bağlı təkliflər məsələsinə gəldikdə isə, nəqliyyat eksperti vurğulayır ki, bu prosesdən danışanda gözümüzün önünə ilk növbədə köhnə sovet avtomobilləri gəlir: "Məhdudiyyətlər bugünkü müasir təhlükəsizlik standartlarına cavab verməyən avtomobillərə şamil oluna bilər. Məsələn, bilirik ki, köhnə sovet avtomobillərində təhlükəsizlik baxımından ABS sistemi mövcud deyil. Bu, nəqliyyat vasitəsi üçün çox vacib məsələdir, çünki ABS tormozlanma zamanı dəstəkçi rolunu oynayan sistemdir. Bundan əlavə, bu nəqliyyat vasitələri bugünkü müasir ekoloji standartlara cavab vermir".

Məlumat üçün bildirək ki, bu layihə iyunun 1-dək Ekologiya və Təbii Sərvətlər, Daxili İşlər, Rəqəmsal İnkişaf və Nəqliyyat nazirlikləri (o cümlədən Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi) və Dövlət Gömrük Komitəsi tərəfindən hazırlanmalıdır.



Yasin Mustafayev

Eldəniz Cəfərov

# "ZAMANI DÜZGÜN qiymətləndirmək lazımdır"

Şahlar Əsgərov: "Təhsil kollegial idarə olunmalıdır. Əgər bir firmanı tək əllə idarə edirsənsə, təhsillə mədəniyyətdə bu keçmir".
















TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

"Məktəbdə olmaq, müəllim və şagirdlərlə görüşmək çox gözəldir. Ən müqəddəs işlə müəllimlər məşğul olur. Təsadüfi deyil ki, Eynşteyn də müəllimlik peşəsi ilə məşğul olub. Mənə 80 yaşımda sual versələr, deyərəm ki, ibtidai siniflərdə dərs vermək istəyirəm..."

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin "Kaspi" qəzeti ilə birgə reallaşdırdığı "Məktəbdə" layihəsinin qonağı olan professor, Əməkdar elm xadimi Şahlar Əsgərov uzun illərdir ki, şagirdlər qarşısında çıxış etmədiyini də etiraf etdi: "Tələbələrlə il ərzində ən azı 30 dəfə görüşmüşəm, amma son illərdə məktəbdə - şagirdlərlə görüşüm olmayıb. Ona görə 20 nömrəli məktəbdə sizlərlə görüşməyimdən qürurluyam".

## BAKININ YAŞAM FONDU QƏDƏR EV

Ş.Əsgərovla görüş Ulu Öndər Heydər Əliyevin doğum gününə təsadüf etdiyindən görkəmli alim Ümummilli Liderin dövlətçiliyimizin, milli dəyərlərimizin qorunmasındakı müstəsna xidmətlərindən və müxtəlif sahələrdə həyata keçirdiyi islahatlardan danışdı: "Ulu Öndərin yaratdığı maddi və mənəvi dəyərlər çoxdur. Heydər Əliyev çıxışlarının birində qeyd edib ki, "mən 14 ildə Bakıda paytaxtın yaşam fondu qədər ev tikdim. Elə bilin ki, ikinci Bakını tikdim". Moskvanın xoşuna gəlməsə də o, çoxlu mənəvi dəyərlər yaratdı. Hələbdə Nəsiminin itib-batan məzarını tapdırdı, onu ziyarət etdi. Şuşada Vaqifin məqbərəsini tikdirdi". Ş.Əsgərov 1988-1992-ci illərdə - Azərbaycanın keçirdiyi ağır və böhranlı dövrdə 91 nəfər ziyalı ilə birlikdə Heydər Əliyevə müraciət etdiklərini və dahi liderin xilaskarlıq missiyasını öz üzərinə götürdüyünü xatırladı: "Sual yarana bilər: sən alim idin, universitetdə dərs deyirdin, niyə məktuba imza atdın? Mən o vaxt Danimarkada və Finlandiyada tədqiqat işləri ilə məşğul olmuşdum. O ölkələrdə dövlətin necə olduğunu müşahidə etmişdim. Düşündüm ki, bizim də elə bir dövlətimiz qurula bilər və bunu yalnız Heydər Əliyev qura bilər. Belə də oldu..."

## "HƏLƏ KƏLBƏCƏRƏ GETMƏMİŞƏM"

Şagirdlərdən birinin "Artıq torpaqlarımız düşmən işğalından azad olunub. Doğma yurdunuza səfər etmisinizmi?" sualına qonaq "Məni yaxşı utandırdın", - deyə cavab verdi: "Şuşada iki dəfə olmuşam. Hələ Kəlbəcərə getməmişəm, amma planımda var. Onda gördüklərim haqqında hansı hisslər keçirdiyimi danışaram...", - deyə cavab verdi.

"Sovet dövründəki təhsillə indiki dövrün təhsili arasında hansı fərq var?" - deyə auditoriyadan səslənən suala qonaq belə cavab verdi: "Təhsillər müxtəlif olub. Keçmiş hakimiyyət fəhlə və kəndli uşaqlarının oxuması üçün hər cür şərait yaradırdı. Hətta aulda da məktəb açırdı ki, orada olan çobanın uşağı oxusun. Orada kollektivə təhsil vermək dəyəri vardısa, indi ayrı-ayrı fərdlərə təhsil vermək dəyəri var. İndiki təhsil o təhsildən həm məzmunca, həm idarəetmə, həm də qiymətləndirmə baxımından fərqlidir. Bununla belə, biz o təhsili də yüksək qiymətləndiririk".



**Fotolar:** Rüfət Mikayılov/Global Media Group

## "TƏHSİL İXTİSASLAR ÜZRƏ GETMƏLİDİR"



"Son illərdə həyata keçirilən təhsil islahatları haqqında fikirləriniz maraqlıdır", - deyə məktəblilərdən biri soruşdu: "Təhsil 3 hissədən ibarətdir: təhsilin idarəedilməsi, təhsilin məzmunu və biliyin qiymətləndirilməsi. Hər üç sahədə qüsurlar var. Təhsil kollegial idarə olunmalıdır. Əgər bir firmanı tək əllə idarə edirsənsə, təhsillə mədəniyyətdə bu keçmir. Çünki bu sahələr o qədər mürəkkəbdir ki, onu bir adamın idarə etməyə gücü çatmaz. Təhsildə vacib amil müəllimdir. Bilik ondan uşağa gedir. Direktordan, nazirdən və ya nazir müavinindən getmir. Onlar hamısı müəllimə qulluq etməlidirlər. Biz o məqama çatanda təhsilimiz düzələcək. Səhv bu prosesin fəlsəfəsindədir. Ümumi orta təhsil bir az qüsurludur. Təhsil ixtisaslar üzrə getməlidir. Bir uşaq futbolçu doğulubsa, onu həndəsədən, cəbrdən imtahan etməyin nə mənası var? Qoy idman məktəbinə getsin. Musiqiçidirsə, fizikanı, biologiyanı öyrətməyin nə mənası var? Yəni təhsil ibtidai sinifdən sonra gimnaziyalar və ya ixtisaslaşmış məktəblər şəklində davam etsə, biz uğur qazanacağıq. Son elmi tədqiqatlar da bunu göstərir. İdeal məktəb yaratmaq dünyanın heç yerində mümkün deyil. Məktəbdə kimsə əlaçı olacaq, kimsə də pis oxuyacaq. Hamını əlaçı eləmək mümkün deyil. Bu uşaqların hər biri Allah tərəfindən istedadlı doğulub, amma hər birinin öz ixtisası var. Bu baxımdan, mən hamının orta ümumtəhsil məktəbində oxumasının əleyhinəyəm. Hər bir uşaq öz istedad və bacarığına görə məktəbdə təhsil almalıdır".

## "BU DÖVRDƏ BİLİKLƏRDƏN ÇOX DÜŞÜNCƏNİ ÖYRƏNMƏK LAZIMDIR"

Məktəblilərdən biri nəsillərarası mübahisə və müqayisə ilə bağlı sual ünvanladı: "Yaşlılar bəzən gənc nəsildən şikayətlənir. Bizlərə tövsiyəniz nədir?" Professor gəncləri ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak etməyə çağırdı: "Yaşlı nəslin ən böyük işi güclü gənc nəsil yetişdirməkdir. Gənc nəsil yetişdirmək üçün, Heydər Əliyevin dediyi kimi, gənclərə nəyi və necə öyrətməyimiz əsas şərtdir. Dünya sürətlə dəyişir. Riyaziyyatçıların çox istifadə etdiyi "texnoloji simulyarlıq" termini var. Yəni çox qısa zaman müddətində texnoloji dəyişiklik baş verir. Deyək ki, kitab çapı ilə qol saatının ixtirası arasında 300 il vaxt keçmişdi. Saatın ixtirası ilə motorun ixtirası arasında 100 ilə yaxın vaxt keçdi. Sonra böyük ixtiralar arasında zaman məsafəsi 50, daha sonra 10 illərə endi. Dünyada tanınmış bəzi firmalar yox oldular. Rəqəmsal şəkil meydana çıxandan sonra lentli fotoqrafiya sənayesi tamamilə çökdü. Buna "texnoloji simulyarlıq" dövrü deyirlər. Bu dövrdən baş çıxarmaq üçün biliklərdən çox düşüncəni öyrənmək, zamanı düzgün qiymətləndirmək lazımdır".

## SOCAR süni intellektdən istifadə edəcək




Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) qabaqlayıcı texniki xidmətdə süni intellektdən istifadə etməyi planlaşdırır. "Report" xəbər verir ki, bunu SOCAR-ın vitse-prezidenti Əfqan İsayev "Ambisiyaların artırılması və fəaliyyətə təkan: COP29 Dayanıqlı Biznes Forumu"nda deyib. Onun sözlərinə görə, bu sistemin tətbiqində əsas məqsəd sıxıntıların qarşısını almaqdır: "Bununla biz qabaqlayıcı texniki xidmət göstərəcəyik. Bu sistemin hazırlanmasında beynəlxalq şirkətlərin də təcrübələri ilə tanış olduq. Bundan başqa, ekoloji idarəetmə sistemimizi yeniləyirik. Yeni tələblərə uyğunlaşdırırıq. Burada yeni texnologiyalar tətbiq ediləcək". Ə.İsayev əlavə edib ki, süni intellektin tətbiqinə 2025-ci ildən başlanılacaq.

## "Nar" voleybol yığmamıza uğurlar arzulayır!




"Nar"ın da tərəfdaşı olduğu Azərbaycan Voleybol Federasiyasının (AVF) qadın və kişi voleybolçulardan ibarət yığma komandaları mayın 17-də Qızıl Avropa Liqasında mübarizəyə başlayıb. AVF-in etibarlı rabitə tərəfdaşı olan "Nar" hər iki milli komandamıza uğurlar arzu edir.

Qeyd edək ki, qadın və kişi voleybolçulardan ibarət milli komandalarımız Qızıl Avropa Liqası çərçivəsində biri ölkəmizdə olmaqla, üç turda mübarizə aparacaq. Kişilərdən ibarət millimiz ilk oyununa 17-19 mayda doğma meydanda çıxacaq. Qadınlardan ibarət yığmamız isə üçüncü tura 31 may-2 iyun tarixlərində Azərbaycanda yekun vuracaq. Ölkəmizdə baş tutacaq turun oyunlarını Gənclər və İdman Nazirliyinin (GİN) Voleybol Mərkəzində izləyə bilərsiniz. Voleybol da daxil olmaqla, müxtəlif idman növlərinə marağın artırılmasına dəstək olan "Nar" ölkəmizdə sağlam həyat tərzini təbliğ edir.

Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.



# 293 ERKƏN EVLİLİYİN QARŞISI ALINIB

**Parlament komitələrində İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatının müzakirəsi başlanılıb. Qeyd olunub ki, Milli Fəaliyyət Planının icrası çərçivəsində tibb müəssisələrindən kənarda baş verən doğuş faktlarına nəzarətin gücləndirilməsi, belə faktlar əsasında erkən nikahların aşkarlanması tədbirləri də nəzarətdə saxlanılıb.**

İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatının detalları açıqlanıb. "Report"un xəbərinə görə, sənəd parlamentin Hüquq siyasəti və dövlət quruculuğu, İnsan hüquqları komitələrinin birgə iclasında müzakirə edilib.

Hesabatdan məlum olub ki, ötən il Azərbaycanda 293 erkən evliliyin qarşısı alınıb. Qeyd olunub ki, Milli Fəaliyyət Planının icrası çərçivəsində tibb müəssisələrindən kənarda baş verən doğuş faktlarına nəzarətin gücləndirilməsi, belə faktlar əsasında erkən nikahların aşkarlanması tədbirləri də nəzarətdə saxlanılıb, həyata keçirilmiş tədbirlərlə hesabat ilində 293 erkən evliliyin qarşısı alınıb.

**TÜRKİYƏ, RUSİYA, BƏƏ...**

Ötən il həmçinin, insan alveri qurbanlarının istismara məruz qaldığı ölkələr məlum olub. Belə ki, insan alveri və məcburi əməklə bağlı olan cinayət işləri üzrə müəyyən edilmiş 91 (-3) insan alveri qurbanının (90-ı qadın, 1-i kişi) hamısı Azərbaycan vətəndaşı olub: "Onlardan 28-i Türkiyə Respublikasında, 28-i Rusiya Federasiyasında, 15-i Birləşmiş Ərəb Əmirliklərində, 10-u Bəhreyn Krallığında, dördü Qətər Dövlətində, üçü İran İslam Respublikasında, biri İraqda cinsi istismara, daha iki nəfəri ölkə daxilində əmək istismarına məruz qalıb".

## UŞAQLARA QARŞI CİNSİ İSTİSMAR TÖRƏDƏNLƏR

Milli Koordinatorun illik məlumatına əsasən, uşaqlara qarşı cinsi istismar törədənlər (pedofiliya) məcburi dövlət genom qeydiyyatından keçirilməli şəxslər sırasına daxil ediliblər. Belə ki, ötən il, həmçinin "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyasının tətbiqi ilə bağlı Əmək, Ailə, Cinayət-Prosessual və Cinayət məcəllələrinə, "Uşaq hüquqları", "Vəkillər və vəkillik fəaliyyəti", "Təhsil haqqında", "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" və s. qanunlarda dəyişikliklər edilib.

Sənəddə qeyd edilib ki, uşaqlara qarşı cinsi istismar və ya cinsi zorakılıqla bağlı cinayət törətməkdə şübhəli bilinən, təqsirləndirilən və ya belə cinayətə görə məhkum olunmuş şəxslər məcburi dövlət genom qeydiyyatından keçirilməli şəxslər sırasına daxil ediliblər.

## BU ŞƏHƏR VƏ RAYONLAR ÖNDƏDİR



Ötən il Azərbaycanda insan alveri qurbanlarının ən çox olduğu şəhər və rayonlar məlum olub. Bildirilib ki, həmin cinayətlərə məruz qalanların 24-ü Bakı, 11-i Gəncə və beşi Sumqayıt şəhərləri, altısı Tovuz, üçü Sabirabad, üçü Ağdam və digər rayonların payına düşür.

İstismarın yeni formaları ortaya çıxdıqca qurbanların daha böyük hissəsini kişilər təşkil edib. "Birləşmiş Millətlər Təşkilatının 2023-cü ilin yanvar ayında açıqladığı 141 ölkəni əhatə edən son Qlobal Hesabatdan görünür ki, istismarın yeni formaları ortaya çıxdıqca qurbanların daha böyük hissəsini kişilər təşkil edib, onların sayı əvvəlki illərlə müqayisədə təxminən üç faiz artıb, habelə fiziki zorakılıqdan qadın qurbanlar kişilərə nisbətən üç dəfə, uşaqlar isə böyüklərlə müqayisədə iki dəfə çox zərər çəkiblər", - deyə məlumatda qeyd edilib.

# ÖLÜMÜ İLƏ HAMINI YANDIRAN AKTRİSA

Vəfa Fətullayevanın ailə həyatı uğursuz alınır. 42 yaşında sevdiyi səhnə ilə də, həyatla da vidalaşır. Ölümündən bir neçə ay sonra atası da, anası da dünyasını dəyişir. Onlar Vəfanın ölümünə dözə bilmirlər.





TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

"Vəfa həyatının son dörd ayını xəstəxanada keçirdi. Son günlərində də onun yanında oldum. Hətta onun haqqında veriliş hazırlamaq niyyətində idim. Bir gün "hamıya veriliş hazırladın, bir məndən başqa" dedi. "Sənə yaxşı bir veriliş hazırlayacam, o verilişdə oynamaq istədiyin rolları üzə çıxaracam" deyəndə, çox sevindi. Hətta verilişin planını da tutmağa başladıq". Bu sözləri mənə bir neçə il öncə Əməkdar artist, Milli Dram Teatrının aktrisası Vəfa Fətullayevanın əmisi oğlu, tanınmış kinorejissor Hafiz Fətullayev demişdi. "Ömür vəfa etsəydi" filmi ekranlara çıxanda isə Vəfa Fətullayeva artıq xərçəng xəstəliyindən vəfat etmişdi. Aktrisa dünyasını dəyişəndə 42 yaşı vardı....

Vəfa Fətullayeva ilk dəfə səhnəni 8-9 yaşından tanımışdı. Şekspirin "Qış nağılı"nda anası ilə eyni səhnədə rol alması onun gələcək sənət taleyini müəyyən edir. İki böyük sənətkarın - teatrın baş rəssamı Nüsrət Fətullayevin və SSRİ Xalq artisti Hökumə Qurbanovanın ailəsində doğulması, ailələrində teatr köklərinin olması onun səhnəyə gəlişində rol oynayır.

Vaxtilə onunla səhnədə oynayan, teletamaşalara birlikdə çəkilən aktyorlar indi Vəfa Fətullayevanı səmimi insan, vəfalı dost və bəxtsiz qadın kimi xatırlayırlar.

## "AÇIN GÖZLƏRİNİZİ, YOLDAŞ İVANOV, AÇIN..."

"Mən 61 ildir teatrda işləyirəm. Vəfa teatra gələn gündən birlikdə çalışmışıq, müxtəlif tamaşalarda tərəf-müqabil olmuşuq", - deyə Xalq artisti Rafiq Əzimov xatırlayır: "Vəfanın teatra gəldiyi illər çox maraqlı idi. Görkəmli sənətkarımız Tofiq Kazımov onu institutda oxuduğu vaxtlarda İlyas Əfəndiyevin "Məhv olmuş gündəliklər" tamaşasında Fəridə roluna dəvət etdi. Vəfanın bu rolu çox uğurlu alındı". R.Əzimov mərhum aktrisa ilə birlikdə çəkildiyi "Göz həkimi" teletamaşasını xatırlayır: "Yaddaşımda daha çox qalan "Göz həkimi" teletamaşasındakı İradə obrazıdır. O tamaşada İvanov rolunu oynamağa sonradan dəvət olunmuşdum. Rol əvvəlcə Hamlet Qurbanova verilmişdi. Amma o, məşqlərə gələ bilmirdi. Rejissor Lütfi Məmmədbəyov bu rolu mənə verdi. Vaxtilə bu rolu teatrda Ağadadaş Qurbanov oynayırdı. Çətin, psixoloji bir roldur. İvanov rolu mənə tapşırılanda artıq çəkilişlər başlamışdı. Mən az qala şok keçirdim. Səhnələrim də Vəfa xanımla bir yerdə idi. Ona yaxınlaşıb "Əgər sizi məşqə saat 10-a çağırıblarsa, biz 9-da görüşək", - deyə xahiş etdim. Vəfa xanım etiraz etmədi. Biz özümüz hər məşqdən əvvəl bir saat çalışırdıq ki, o biri aktyorlardan geri qalmayaq. Bu rolu demək olar ki, ikimiz bir yerdə hazırladıq. Çəkilişlər Botanika bağında həyata keçirilirdi. Xəstəxananın baş həkimi Nazim Əfəndiyev tamaşanın məsləhətçisi idi. "Olarmı, xəstəxanaya gəlim, rolumun təbii alınması üçün xəstələrin müayinə və əməliyyat prosesini izləyim?" - deyə professora müraciət edəndə o, mənə şərait yaratdı. Mən doktor İradə xanımın gözümü əməliyyat edəndən sonra "Açın gözlərinizi, yoldaş İvanov, açın..." səhnəsini oynamaq üçün boş vaxtlarımda xəstəxanada həmin prosesləri izləyirdim. "Mahnı dağlarda qaldı" tamaşasında da onun Gülgəz rolu uğurlu alınıb. Hətta tamaşa Dövlət mükafatına təqdim olundu. Fuad Poladov hərbi xidmətə gedəndə Rəhman surətini mənə tapşırdılar. Mən yenə Vəfa xanıma müraciət etdim ki, birlikdə məşqlər edək. Yenə imtina etmədi, birlikdə məşq etdik". R.Əzimov deyir ki, Vəfa Fətullayeva hər rolda başqalaşmağı bacarıb. Onun sevilməsinin, rollarının uğurlu olmasının səbəbi də bu idi: "Vəfanın şaqraq gülüşü indi də qulağımdadır. Ölüm ona yaraşmırdı. Hamımız onun xəstəliyini eşidəndə sarsılmışdıq. Vəfanın ailə həyatı da uğursuz oldu. Ölümündən bir neçə ay sonra atası da, anası da dünyasını dəyişdi. Onlar Vəfanın ölümünə dözmədilər. Vəfanın ölümü hamımızı yandırdı".



Fotolar: photostock.az

## "VƏFA DAHA TƏBİİ, KOLORİTLİ VƏ MÜASİR İDİ"

"Vəfa Fətullayeva ilə aramızda az yaş fərqi vardı. O məndən 2 yaş böyük idi", - deyə Xalq artisti İlham Namiq Kamal xatırlayır: "Vəfa ilə bir institutda oxuyurduq. O, teatrşünaslıq fakültəsində təhsil alırdı. Onda heç ağlıma gəlməzdi ki, teatrda işləyəcək. Hələ institutda oxuyanda mühazirə dərslərində, bufetdə bir yerdə otururduq. Sonradan teatrda da bir çox tamaşalarda tərəf-müqabil olduq. "Göz həkimi" televiziya tamaşasında bir çəkildik. Vəfa həddindən artıq səmimi, həyati bir insan idi. Optimist, zarafatcıl idi, amma hər şeydə əndazəni bilirdi. Təəssüf ki, onun ailə həyatı da uğursuz oldu. Biz onun xəstə olduğunu da bilmirdik. Heyf ki, xəstəlik onu erkən apardı. O, hələ çox rollarda oynaya, filmlərdə çəkilə bilərdi. Çox təbii aktrisa idi. Anası Hökumə xanım da böyük sənətkar idi. Amma deyərdim ki, Vəfa daha təbii, koloritli və müasir idi. O, zamanla ayaqlaşa bilən insan idi".

## "O, HƏR ŞEYİ SƏHNƏYƏ QURBAN VERDİ"

Tanınmış diktor, Xalq artisti Şərqiyyə Hüseynova aktrisa ilə tələbə yoldaşı və yaxın rəfiqə olub. "Vəfa teatrşünaslıqda oxuyurdu, səhnəyə o qədər həvəsi yox idi. O, anasının təkidi ilə səhnəyə gəldi və qısa müddət ərzində nə qədər gözəl obrazlar yaratdı", – deyə Şərqiyyə xanım xatırlayır: "Vəfa tez-tez bizim evimizə gələrdi. Mənim atam hərbçi idi. Biz hərbi şəhərcikdə yaşayırdıq. Böyük həyətimiz vardı. Vəfa bizə gəlməyi xoşlayırdı. Çox səmimi, vəfalı dost idi. Vəfanın çox gözəl gülüşü vardı. Xırda bir şeyə elə ürəkdən gülərdi ki, az qala uğunub gedərdi. Bizim o illərimiz çox şən keçirdi. O, Zaur adlı voleybolçu ilə nişanlı idi. Mən də nişanlı idim. Biz dördlükdə gəzməyə çıxırdıq. Vəfa səhnəyə gedəndən sonra bizim yollarımız bir qədər ayrıldı. Mən televiziyada işləyirdim. Vaxt üzündən müntəzəm görüşə bilmirdik. O, Zaurla evlənəndən bir il sonra ayrıldı. Zaur onun səhnədə olmasını istəmirdi. Onların övladları olmalı idi. Bu cür söz-söhbətlər onların ailəsini dağıtdı. Vəfa hər şeyi səhnəyə qurban verdi".

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
18 MAY ŞƏNBƏ 2024
www.kaspi.az



# MÖVSÜMÜN QƏHRƏMANLARINA ÇEVRİLƏNLƏR

Bu mövsüm də Avropa liqalarında yeni kəşf olunan ulduzlar oldu. Virts, Bellinqem kimi parlayan ulduzlar komandalarının uğurlarında böyük rol oyandılar. Dünyanın ən böyük futbolçu istehsalçılarından olan "La Masiya" da bu mövsümü boşa vermədi.

Avropa liqalarında 2023/24 mövsümü sona yaxınlaşmaqdadır. "Böyük beşlik"də Almaniya, İtaliya, İspaniya və Fransada çempion artıq müəyyənləşib. Yalnız İngiltərədə qalib son turda müəyyənləşəcək. Bu yazıda mövsümün parlayan, yeni kəşf olunan ulduzlarından bəhs edəcəyik.

**"BAYER"İN LİDERİNƏ ÇEVRİLƏN GƏNC**

Avropada mövsümün ən parlaq komandası, şübhəsiz, "Bayer"dir. Almaniyada "Bavariya"nın hegemonluğuna son qoyan Leverkuzen təmsilçisi mövsümü məğlubiyyətsiz bitirməyə çox yaxındır. "Bayer"in ən parlaq siması isə Florian Virtsdir. Cəmi 21 yaşı olan hücumameyilli yarımmüdafiəçi bu il bütün turnirlərdə 46 oyun keçirib, 18 qol və 19 məhsuldar ötürmə ilə yadda qalıb. Virts bir çox qarşılaşmada komandanın xilaskarı rolunu oynayıb. Virts oyunu ilə Avropanın top klublarının diqqətini çəkə bilib. Onun bazar dəyəri 110 milyon avrodur.

**"REAL MADRİD"İN REKORDÇUSU**

İspaniya La Liqasının çempionu olan və Çempionlar Liqasında finala yüksələn "Real Madrid"də möv-sümün tapıntısı Cud Bellinqemdir. Keçən ilin yayında Dortmund "Borussiya"sından 103 milyon avroya transfer olunan ingiltərəli yarım-müdafiəçi xüsusən mövsümün əvvəlindəki çıxışı ilə azarkeşlərin sevgisini qazanmağı bacardı. "Kral klubu"nun tarixinə hətta Kriştiano Ronaldodan daha yaxşı startla düşən və ardıcıl rekordlar qıran Bellinqem çempionluq mövsümündə La Liqada komandanın ən yaxşı bombardiridir. O, rəqib qapılarına 19 dəfə yol tapmaqla uğurda böyük pay sahibi olub. Ümumən "Real"ın əvəzedilməz oyunçularından olan Bellinqem möhtəşəm mövsümün əsas memarlarındandır. Performansı ilə qiymətini 60 milyon avro artıran Cud hazırda dünyanın ən bahalı futbolçularındandır. Onun dəyəri 180 milyon avrodur.



## "LA MASİYA" FASİLƏ VERMİR

Dünyanın ən böyük futbolçu istehsalçılarından olan "Barselona"nın akademiyası - "La Masiya" bu mövsümü də boşa vermədi. Yenidən bir neçə gənc oyunçu Kataloniya təmsilçisinin əsas komandasına yüksəldi. Xavi çətin zamanlarda vunderkindlərə güvəndi və onlar bu şansdan yararlanmağı bacardılar.

Ən çox diqqət çəkən, şübhəsiz, Lamin Yamaldır. Klubun əfsanəsi Lionel Messiyə bənzədilən 16 yaşlı istedad debüt mövsümündə əla performans sərgiləyir. Bir çox ilkə imza atan Yamal 47 qarşılaşmada şans qazanıb və bu görüşlərdə yeddi qol, doqquz məhsuldar ötürmə ilə yadda qalıb. Beləliklə, o, dəyərini 75 milyon avroya qədər yüksəldə bilib. Katalonlarda diqqət çəkən daha iki ad isə Pau Kubarsi və Fermin Lopezdir. Kataloniya təmsilçisinin azarkeşlərinin bu iki gənc oyunçuya da ümidləri böyükdür.

**"ÇELSİ"NİN ƏN DOĞRU TRANSFERİ**

Son illər transferlərə fantastik məbləğlər xərcləyən "Çelsi"nin bunun qarşılığını tam aldığını söyləmək olmaz. Komanda Premyer Liqada çempionluq mübarizəsindən çox uzaq düşüb. Tod Boelinin kluba sahiblənməsindən sonra isə transferlərə bir milyard avrodan çox vəsait xərclənib. Maraqlıdır ki, onların arasında ən uğurlusu heç də ən bahalı olan deyil. Keçən yay 47 milyon avroya "Mançester Siti"dən transfer edilən Kol Palmer "zadəganlar"ı çiyinlərində daşıyır. Premyer Liqada 21 qol vurub, 10 assist edən ingilis bombardirlər yarışında yalnız Erlinq Holandan geri qalır. Bu gedişlə Palmer hələ uzun illər "Çelsi"nin əsas simalarından olacaq.

## ULDUZU GEC PARILDAYANLAR



Mövsümün tapıntıları arasında xüsusi diqqət çəkən iki ad var. Bunlar Viktor Dyokereş və Artyom Dovbikdir. Dyokereş İngiltərə Çempionşip klubu "Koventri"dən transfer olunduğu Portuqaliya "Sportinq"ində fantastik mövsüm keçirir. Ölkə çempionatında 32 oyunda fərqlənən 25 yaşlı isveçli 27 qol vura bilib. O, "Sportinq"in çempionluğunda böyük pay sahibidir.

Ukraynalı Artyom Dovbik isə "Jirona"nın nağıl kimi davam edən mövsümünün əsas fiqurlarındandır. 26 yaşlı hücumçu keçən yay "Dnipro-1"dən La Liqa klubuna transfer olunub. Orada gözləntilərdən daha yaxşı çıxış edən forvard 20 qolla çempionatın bombardiridir. "Jirona" isə Çempionlar Liqasına vəsiqəni təmin edib və bürünc medal qazanmağa çox yaxındır.

## "KÖHNƏ QİTƏ"DƏ İKİ TÜRKİYƏLİ OYUNÇU

Bu mövsüm iki türkiyəli oyunçu da Avropada parlamağı bacardı. Düzdür, ola bilsin ki, Arda Gülerdən "Real Madrid"də gözləntilər daha böyük idi. Lakin onun çıxışını zəif adlandırmaq da olmaz. 19 yaşlı oyunçu az şans qazansa da, meydana çıxdığı oyunlarda xoş təsir bağışlayıb. Arda bu mövsüm dörd qol vurmağı bacarıb.

"Yuventus"da isə Kenan Yıldız parılmağa başlayıb. Klubun gənc komandasından yüksələn 19 yaşlı oyunçu tez bir zamanda A Seriyasında oyunu ilə diqqət çəkməyi bacardı. Xüsusən, komandanın yüksəlişdə olduğu mövsümün ortalarında Kenanın performansı da zirvəyə yüksəlmişdi. Bu mövsüm üç qol vurması və ümumən sərgilədiyi oyun Turin klubunun azarkeşlərində ona sevgi yarada bilib.